RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 88 (9255) 30 APREL 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## İstanbulun Atatürk Hava Limanında qarşılanma







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank və digər rəsmi şəxslər qarşıladılar.



# Bir millət, iki dövlət, bir yumruq!

**Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan "Togg" avtomobili ilə festivalın keçirildiyi məkana gəldilər.

Yolboyu düzülən festival iştirakçıları prezidentləri, birinci xanımları gül-çiçək dəstələri və sürəkli alqışlarla qarşıladılar.

Sonra xatirə şəkli çəkdirildi.

Liviyanın Baş naziri **Əbdülhəmid Dibeybe** çıxışında "TEKNOFEST"ə dəvət edilməsini və bu tədbirdə iştirakını Türkiyə ilə Liviya arasında dərin tarixi əlaqələrin və iki xalqın birliyinin göstəricisi olduğunu dedi.

Müasir Türkiyənin inkişafında Rəcəb Tayyib Ərdoğanın rolunu vurğulayan Liviyanın Baş naziri bildirdi ki, Türkiyə bu gün uğurlu dövlət modelinin ən gözəl nümunəsidir. Bu gün biz xalqına, millətinə və Vətəninə, sözün həqiqi mənasında, xidmət edən bir Türkiyə modelini görürük.

Akkuyu Atom Elektrik Stansiyasının inşasının Türkiyənin imkanlarını daha da genişləndirəcəyini vurğulayan Əbdülhəmid Dibeybe diqqətə çatdırdı ki, bu gün Türkiyə dövləti müdrik rəhbərliyi, sahib olduğu böyük imkanları sayəsində bütün maneələrə qarşı sarsılmaz mövqe nümayiş etdirir.

Fevralın 6-da baş vermiş zəlzələnin fəsadlarının Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi və türk xalqının əzmkarlığı sayəsində sürətlə aradan qaldırıldığını deyən Baş nazir bərpa işlərinin uğurla həyata keçirildiyini vurğuladı.

Əbdülhəmid Dibeybe bildirdi ki, əhatə coğrafiyasını ildən-ilə genişləndirən "TEKNOFEST" Türkiyənin kosmos, aviasiya və texnologiya sahələrində necə sürətlə inkişaf etdiyini göstərir. O, Liviyanın hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsinə verdiyi töhfələrə görə Türkiyə dövlətinə və "Baykar" şirkətinə təşəkkürünü bildirdi.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

→ 2-3-4

## Azərbaycan və Türkiyə prezidentləri birgə nahar ediblər



→ 4

# İlham Əliyev qətiyyətinin təntənəsi

### Laçın-Xankəndi yoluna nəzarət edirik, Şuşada, Ağrıda, Murovda və Zəngəzur dağlarında dalğalanan bayrağımız düşmənə gözdağıdır

Tarixinin ən qüdrətli Azərbaycanı İkinci Qarabağ müharibəsindəki zəfərdən sonra da gücünü, əzəmətini nümayiş etdirir. Həm işğaldan azad edilən torpaqlarda yalnız öz imkanları hesabına misli görünməyən tikinti-quruculuq işləri aparır, həm də Hayastanın Qarabağdakı separatçı üzvlərini zərərsizləşdirir və ərazilərimizə qanunsuz silah-sursat daşınması prosesinin qarşısını qətiyyətlə alır.

Aprelin 23-də Azərbaycanın suveren hüquqlarından istifadə edərək Laçın-Xankəndi yolunun başlanğıcında, yəni öz ərazisi sayılan Laçın şəhərində nəzarət-keçid məntəqəsini yaratması da bu prosesin tərkib hissəsi sayıla bilər. Bu həm Ermənistanı, həm də onun havadarlarını, xüsusilə də Fransanı narahat etdi. Şanlı zəfərimizdən sonra mütəmadi olaraq Azərbaycana müxtəlif formalarda təzyiqlər etmək istəyən Fransanın növbəti oyunu rəsmi Parisin Avropa və xarici işlər naziri Ketrin Kolonnanın ölkəmizə və Hayastana səfəri çərçivəsində qurulmuşdu. Amma hər zaman yürütdüyü müstəqil siyasəti və qətiyyətli fikirləri ilə bütün diplomatik danışıqlarda xalqının maraqlarını ifadə edən İlham Əliyev yenə də qəti sözünü dedi və xanım naziri susdurdu. Prezident bir daha vurğuladı ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir.

→ 6




Fəxr et, qürur duy,
AZƏRBAYCAN!



# 7-ci DƏFƏ...




"Formula-1"də gündəlik həyatda görmədiyimiz və xüsusi olaraq bu idman növü üçün hazırlanan avtomobillər yarışır. Bolid adlandırılan müasir "Formula-1" avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar təkadamlıq olur, üstəlik, sürücü yeri və təkərləri açıqdadır. Bu avtomobillərin yürüşü üçün tələblərə cavab verən trekin olması vacib şərtdir. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası "Formula-1" təqviminin ən gözəl mübarizə meydanlarından biridir. Çünki Bakı mübarizəsində pilotlar xüsusi avtodromda deyil, məhz şəhərin küçələrində yarışırlar.

→ 11

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

# Bir millət, iki dövlət, bir yumruq!

### Prezident İlham Əliyevin çıxışı










- Hörmətli Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, hörmətli Əminə xanım, hörmətli və əziz dostlar.

Qardaş ölkədə yenidən olmağımdan çox məmnunam. Sizə Azərbaycan xalqının səmimi salamlarını gətirmişəm. Bir il öncə "TEKNOFEST" festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz "TEKNOFEST"də iştirak etmişdik. Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir.



Eyni zamanda iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi.

Ardı 3-cü səh.

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

# Bir millət, iki dövlət, bir yumruq!



















*Əvvəli 2-ci səh.*

İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi.

Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın türk dünyası qarşısında tarixi xidmətləri vardır.

Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir.

Bu gün "TEKNOFEST"də iştirak edərkən "TEKNOFEST"in qurucusu, əziz qardaşımız Selçuk Bayraktarın xidmətlərini də qeyd etmək istərdim. Selçuk bəy Azərbaycanda dəfələrlə olmuş, o cümlədən azad edilmiş torpaqlarda, Şuşada. Son gəlişində - aprelin 3-də Azərbaycanda olarkən biz gələcək işbirliyi haqqında danışdıq və Azərbaycanda "Bayraktar" mərkəzinin yaradılması haqqında razılığa gəldik. İnşallah, yaxın gələcəkdə Azərbaycanda "Bayraktar" mərkəzi yaradılacaq, orada təhsil, xidmət, istehsal da olacaqdır. Selçuk bəy Bakıda olarkən "Kızılelma"nın bir maketini hədiyyə etdi. Mən fürsətdən istifadə edərək "Kızılelma" ilə bağlı bütün qardaşlarımızı təbrik etmək istəyirəm və ümid edirəm ki, yaxın gələcəkdə "Kızılelma" Azərbaycanın səmasında da olacaqdır. "Kızılelma" havada, "Altay" və "Togg" quruda, "Anadolu" dənizdə - bugünkü Türkiyə budur.

Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

Mən bu il üçüncü dəfə qardaş ölkəyə səfər edirəm. Fevral ayında olmuşam, mart ayında olmuşam, bu gün buradayam. Əziz qardaşım, növbə Sizindir. Biz Sizi gözləyirik, bütün Azərbaycan xalqı Sizi gözləyir, Sizi öpür, qucaqlayır, Sizə öz hörmət və sevgisini çatdırır. Türkiyə-Azərbaycan birliyi əbədidir!

❖ ❖ ❖

"TEKNOFEST" çərçivəsində Azərbaycan dövlətinin zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində inşa edəcəyi min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməlinin qoyulması mərasimi oldu.

Azərbaycanın Türkiyəyə bu qardaşlıq köməyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:

- Əziz xalqım, xanımlar və cənablar.

Əziz qardaşım İlham Əliyev lap əvvəldən mərkəzi Pazarcık olan zələdə bizi heç vaxt yalnız qoymadı. İlk andan etibarən axtarış-xilasetmə heyətləri Kahramanmaraşda bizimlə birlikdə oldu. Onunla da kifayətlənmədi, daha sonra İlham qardaşım Kahramanmaraşda min evin inşa ediləcəyinə söz verdi. Təbii ki, orada məktəbi, məscidi, yataqxanası və yaşayış binaları olan bir Azərbaycan şəhəri inşa etməyi qərara aldı. Bu gün fürsətdən istifadə edərək, indi onun təməlini qoyacağıq. Vahid Kirişçi bəy qarşımızdadır.

Türkiyənin kənd təsərrüfatı və meşə naziri **Vahid Kirişçi:** Ehtiramımızı ifadə edirəm, cənab Prezidentim. Buradakı iştirakçılar adından Zati-alinizi, möhtərəm Prezidenti, hörmətli xanımları dərin ehtiramla salamlayıram.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İndi ətrafı yaxından göstərin, harada nə var görək. Layihə möhtəşəmdir. Bu layihəni, İnşallah, qısa müddətdə haqqı çatanlara Azərbaycanın əli ilə təqdim edəcəyik.

❖ ❖ ❖

Sonra yaşayış kompleksinin təməli qoyuldu.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İlham qardaşım deyir ki, bir ildə başa çatdırılmalıdır, xeyirli olsun.

**Prezident İlham Əliyev:** Xeyirli olsun.

❖ ❖ ❖

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə türk dünyasının böyük oğlu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış xatirə əsginasını təqdim etdi.

*Ardı 4-cü səh.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

# Bir millət, iki dövlət, bir yumruq!





*Əvvəli 3-cü səh.*

❖ ❖ ❖

Festivalda çıxış edən Türkiyə **Prezidenti Rəcəb Tayyib Ərdoğan** dedi:

- Azərbaycan Prezidenti əziz qardaşım İlham Əliyev.

Liviyanın Baş naziri qardaşım Əbdülhəmid Dibeybe.

Əziz istanbullular, xanımlar və cənablar, "TEKNOFEST"in hörmətli iştirakçıları, əziz gənclər.

Sizi ən səmimi hisslərimlə, sevgi və məhəbbətlə salamlayıram.

Maşallah, bu il də İstanbulda "TEKNOFEST" başqa cür gözəldir. Burada sizin vasitənizlə ölkəmizin 81 vilayətindəki bütün gənc ürəklərə salamlarımı göndərirəm. Könül coğrafiyamızın hər tərəfindəki gənclərimizi, gənc qardaşlarımızın hamısını buradan bir daha sevgi ilə salamlayıram.

Dünyanın bir nömrəli aviasiya, kosmik və texnoloji festivalı "TEKNOFEST"də sizlərlə bərabər olmaqdan böyük məmnunluq duyuram. İstanbulumuzdan və Türkiyənin müxtəlif şəhərlərindən "TEKNOFEST"ə təşrif buyuran gənclərimizə "İstanbulumuza xoş gəldiniz!" deyirəm.

Azərbaycan Prezidenti, hörmətli qardaşım və dostum İlham Əliyevə xanımı ilə birlikdə bilavasitə iştirak etdiyi üçün təşəkkür edirəm.

Eyni qaydada Liviyanın Baş naziri Dibeybe qardaşıma da təşəkkür edirəm.

Şöhrəti ölkəmizin sərhədlərini də aşan altıncı "TEKNOFEST"də sizlərlə birlikdəyik. Birincisini 2018-ci ildə keçirdiyimiz "TEKNOFEST", şükür olsun, artıq öz sahəsində bir markaya çevrilib. Keçən il Bakıda can azərbaycanlı gənclərimizlə "TEKNOFEST" sevincini yaşadıq. Samsundan Qaziantepə qədər ölkəmizin müxtəlif vilayətlərində texnologiyaya, müdafiə sənayesinə, elmə marağı olan gənclərimizlə bir araya gəldik. Builki texnologiya bayramımızı indi İstanbulda keçiririk, daha sonra İnşallah, Ankarada təşkil edəcəyik.

Milli texnoloji həmləmizin konkret nümunələrinin nümayiş etdirildiyi "TEKNOFEST"in ölkəmizə, millətimizə və siz gənclərimizə xeyirli olmasını diləyirəm. Bizlərə bu qürur mənzərəsini yaşadan T3 Vəqfinə, nazirliklərimizə, bütün tərəfdaş qurum və təşkilatlarımıza təşəkkür edirəm. Müsabiqəyə qatılan, yer tutan, layihələri və fikirləri ilə qarşıda yeni üfüqlər açan bütün qardaşlarımızı səmimiqəlbdən təbrik edirəm.

"TEKNOFEST"də iştirak üçün müraciət edən komandaların sayının ildən-ilə dəfələrlə artdığını vurğulayan Türkiyə Prezidenti dedi: "Bu festivala 2018-ci ildə 4333 komanda ilə Bismillah demişdik. Bu il 81 vilayət və 96 ölkədən 333 min komanda, 1 milyon iştirakçı müraciət edib. Yarışların kateqoriyası da 14-dən 41 əsas və 102 alt kateqoriyaya çatıb. İştirakçıların sayının artması ilə birlikdə mükafatlarımızın məbləği də yüksəlib. Cəmi 4 milyon mükafat və dəstək məbləği ilə başlayan proses 44 milyon lirəyə çatıb. Rekordların və ilklərin festivalı olan "TEKNOFEST"in qarşıdakı dövrdə uğur səviyyəsinin daha da yüksələcəyinə inanıram".



Fevralın 6-da baş verən zəlzələlərdən sonra əhalinin harayına çatan T3 Vəqfini və "Baykar" şirkətini təbrik edən Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, "Baykar" şirkəti "Əsrin fəlakəti" qarşısında nümayiş etdirdiyi nümunəvi mövqe ilə bu millətin doğma övladı olduğunu bir daha ortaya qoydu. Dövlət başçısı T3 Vəqfinin və "TEKNOFEST" könüllülərinin dəfələrlə bölgəyə gedib zəlzələdən zərər çəkənlərin çətin günlərində yanlarında olduqlarını xatırladaraq onlara minnətdarlığını ifadə etdi.

Kahramanmaraşda təməli qoyulan evlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Türkiyə Prezidenti dedi: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi".

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin yüksək texnologiyalara əsaslanan layihələr həyata keçirdiyini qeyd edərək vurğuladı: "Təkcə son aylarda yaşadığımız inkişafı sizlər də gördünüz. Bir az əvvəl əziz qardaşım İlham Əliyev də dedi: "Kızılelma" havaya qalxdı, "Togg" satışa çıxarıldı. Budur, "Kızılelma", "Akıncı" qarşımızdadır, "TCG Anadolu" gəmisi Dəniz Qüvvələrinə təqdim edildi".

İndiyədək "TCG Anadolu" gəmisini 100 minə yaxın vətəndaşın ziyarət etdiyini diqqətə çatdıran Türkiyə Prezidenti Qara dənizdə çıxarılan təbii qazın istismarına başlanılmasını, milli döyüş təyyarəsinin, "Gökbey" helikopterinin, "Hürjet" və "ATAK-2" qırıcılarının, "Altay" tankının istifadəyə verilməsini Türkiyənin son illərdə böyük uğurlarının göstəricisi kimi dəyərləndirərək "TEKNOFEST"in bütün bu nailiyyətlərin rəmzi olduğunu qeyd etdi.

Türkiyənin son illərdə kosmik sahədə də böyük uğurlar qazandığını qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan İMECE peykinin kosmosa göndərilməsinin əhəmiyyətini vurğulayaraq Beynəlxalq Kosmik Stansiyaya yola düşəcək türk pilotlar Alper Gezeravcıya və Tuva Cihangir Ataseverə uğurlar arzuladı.

❖ ❖ ❖

Çıxışlardan sonra "TEKNOFEST" çərçivəsində keçirilmiş müsabiqələrin qaliblərinin mükafatlandırılması mərasimi oldu.

Müsabiqənin qalibləri ilə xatirə şəkilləri çəkdirildi.

"Kızılelma" pilotsuz uçuş aparatının səmada manevrləri izlənildi.

"Baykar" şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktar Azərbaycan Prezidenti İlham Əliyevə, Liviyanın Baş naziri Əbdülhəmid Dibeybeyə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana xatirə hədiyyələri təqdim etdi.

❖ ❖ ❖

Qeyd edək ki, milli texnoloji həmlə konsepsiyası ilə texnologiya sahəsində sürətlə inkişaf edən Türkiyənin altıncı ildir təşkil etdiyi builki "TEKNOFEST" festivalı aprelin 27-də start götürüb. Mayın 1-dək davam edəcək festival Türkiyə Texnologiya Komandası Vəqfinin (T3 Vəqfi), Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı, qardaş ölkənin milli texnoloji sistemində mühüm rol oynayan dövlət, özəl, elm və media qurumlarından ibarət 120-dək qurumun tərəfdaşlığı ilə keçirilir. İldən-ilə genişlənən "TEKNOFEST"də beş gün ərzində texnologiya, elm, aviasiya-pilotaj nümayişləri, sərgilər, konfranslar, texnoloji yarışlar, mükafatlandırma mərasimləri və digər tədbirlər təşkil olunacaq.

Festival çərçivəsində keçirilən texnoloji yarışlar öz arzularını reallığa çevirmək istəyən gənclərin layihələrinin təqdimatı üçün ideal platforma təklif edir. Məhz bunun nəticəsidir ki, bu möhtəşəm festivalın iştirakçılarının sayı ildən-ilə sürətlə artmaqdadır. Belə ki, "TEKNOFEST"in ilk dəfə təşkil olunduğu 2018-ci ildə tədbirə 4333 komanda və 20 min iştirakçı qatılmışdısa, bu il komandaların sayı 333 mindən, iştirakçıların sayı isə 1 milyondan çoxdur. Builki "Texnoloji yarışlar"da 102 müxtəlif kateqoriya üzrə 41 yarış keçirilir.

Xatırladaq ki, 2022-ci il mayın 26-29-da "TEKNOFEST" ilk dəfə Türkiyədən kənarda - Azərbaycanda keçirilib. "TEKNOFEST Azərbaycan"ın açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, eləcə də Nobel mükafatı laureatı Əziz Səncər iştirak ediblər.

"TEKNOFEST Azərbaycan" festivalını 300 minə yaxın insan ziyarət edib. Festival çərçivəsində üç beynəlxalq tədbir və səkkiz texnoloji müsabiqə təşkil olunub. Həmin müsabiqələrdə 5 mindən çox gəncin formalaşdırdığı 1000-dən çox komanda yarışıb.

## Azərbaycan və Türkiyə prezidentləri birgə nahar ediblər



Aprelin 29-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birgə nahar ediblər.

## Səfər başa çatdı





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfəri aprelin 29-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan yola saldılar.

# Azərbaycan və Türkiyə prezidentləri "CNN Türk"ün müxbirinin suallarını cavablandırıblar

**"TEKNOFEST" festivalında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan "CNN Türk" televiziyasının müxbiri Fulya Öztürkün suallarını cavablandırıblar.**





AZƏRTAC xəbər verir ki, **Prezident İlham Əliyev** müsahibədə deyib: Çox xoşbəxtəm ki, qardaşımın yanındayam, burada da olmalıyam. Bu gözəl, möhtəşəm bayramı bərabər qeyd etdik, təbriklərimizi çatdırdıq. Mən söylədim ki, bu il artıq üçüncü dəfədir Türkiyədəyəm. İndi növbə qardaşımındır. İnşallah, seçkilərdən sonra onu Azərbaycanda gözləyirik.

**Fulya Öztürk:** Mehriban xanım da buradadır. Salam, necəsiniz?

**Mehriban xanım Əliyeva:** Salam, sağ olun. Çox qürur duyuruq.

**Əminə xanım Ərdoğan:** Bu xoş günü birlikdə qeyd edirik və buna görə çox təşəkkür edirik. Bu xoş günümüzdə bizimlə olduqlarına və zəlzələ zonasında etdikləri yardımlara görə sonsuz təşəkkürlərimizi bildiririk.

**Mehriban xanım Əliyeva:** Sağ olun. Çox böyük qürur duyuruq.

**Fulya Öztürk:** "TEKNOFEST" ötən il Azərbaycanda keçirilmişdi, yenidən təşkil olunacaqmı?

**Prezident İlham Əliyev:** Gözləyirik, əlbəttə, keçiriləcək. Mən dedim ki, Azərbaycanda "Bayraktar" Mərkəzi qurulacaq, "TEKNOFEST" yenə də gələcək. Keçən il çox gözəl bir tədbir keçirildi. Gözləyəcəyik, sizi də gözləyirik.

**Fulya Öztürk:** İnşallah, gələcəyik. İkinci Qarabağ müharibəsi qazisi də burada, "TEKNOFEST" dədir. Adınızı öyrənə bilərəm?

**Qazi:** İkinci Qarabağ müharibəsinin qalibi, iki ayağını da ağır döyüşlərdə itirmiş qazi Taleh Camalov. Vətən sağ olsun.

**Prezident İlham Əliyev:** Gör, nə qədər medalı var. "Xocavənd", "Cəbrayıl", "Füzuli", "Fərqlənməyə görə", "Xarıbülbül".

**Qazi Taleh Camalov:** Bir ay döyüşdə oldum.

**Prezident İlham Əliyev:** Qəhrəmandır, bizim torpaqlarımızı azad edənlər bunun kimi qəhrəmanlardır.

**Qazi Taleh Camalov:** Sizin sayənizdə, Selçuk Bayraktar qardaşımızın sayəsində, onların silahlı PUA-larının sayəsində.

Səmada nümunəvi uçuşlar edən "Kızılelma" və "Akıncı" PUA-larını göstərən **Selçuk Bayraktar** dedi: "Kızılelma" və "Akıncı" bərabər uçurlar. Bu uçuş forması dünyada ilk dəfədir.

**Prezident İlham Əliyev:** "Akıncı" və "Kızılelma".

**Fulya Öztürk:** Nümunəvi uçuş edirlər.

❖ ❖ ❖

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "TEKNOFEST"in keçirildiyi məkandan ayrılarkən yenidən Fulya Öztürkün suallarını cavablandırıblar.

**Fulya Öztürk:** Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev hazırda "Togg" avtomobilindədirlər. "Togg"u idarə etmək necə hissdir?

**Prezident İlham Əliyev:** Gözəl, çox gözəl.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Bu qızı tanıyırsan?

**Prezident İlham Əliyev:** Təbii ki, tanıyırıq. Bu, bizim qızdır. İkinci Qarabağ savaşında ən təhlükəli yerlərə gedən jurnalistdir. Bizimlə kədərləndi, bizimlə sevindi, Qələbəni də bizimlə qeyd etdi. Bu qız bizim qızımızdır.

**Əminə xanım Ərdoğan:** Maşallah, qəhrəmandır.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Əsl vətənpərvərdir.

**Fulya Öztürk:** Biz qardaşıq.

**Prezident İlham Əliyev:** Bəli.

**Fulya Öztürk:** Cənab Prezident, necəsiniz? Sağlamlığınız necədir?

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Şükür olsun, çox yaxşıyam.

**Prezident İlham Əliyev:** Maşallah, hər kəsdən daha gözəl, cavan, gənc.

**Fulya Öztürk:** Cənab Prezident, Sizi yaxşı gördük, maşallah.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Sağ ol.

**Fulya Öztürk:** Çox təşəkkür edirəm, yolunuz açıq olsun.

**Prezident İlham Əliyev:** Sağ ol.

# Tatarıstanla iqtisadi əlaqələrin intensivləşdirilməsinə dair müzakirələr aparılıb



Azərbaycan nümayəndə heyətinin Tatarıstana səfəri çərçivəsində Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası, biznes-forum keçirilib, iqtisadi əlaqələrin intensivləşdirilməsinə dair müzakirələr aparılıb.

## Rusiya Federasiyasının Tatarıstan Respublikasının rəisi ilə görüş keçirilib

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiya Federasiyasının Tatarıstan Respublikasının rəisi Rüstəm Minnixanov arasında görüş keçirilib. Tərəflər Azərbaycanın Tatarıstanla iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu qeyd edib, əməkdaşlığın gücləndirilməsi üçün görüləcək işlər barədə müzakirə aparıblar.

## Birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib

Kazanda Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib.

Tədbirdə Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin şaxələndirilməsi barədə fikirlərini bölüşən iqtisadiyyat naziri müvafiq qurumlar arasında institusional əməkdaşlığın intensivləşdirilməsinin əhəmiyyətini, işğaldan azad edilmiş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işlərində əməkdaşlıq üçün geniş potensialı diqqətə çatdırıb. Ölkələrimiz arasında bir çox sahələrdə uğurlu əlaqələri qeyd edən Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Oleq Korobçenko Tatarıstan şirkətlərinin Azərbaycanın biznes dairələri ilə əməkdaşlıq üçün real təkliflərinin olduğunu və bu istiqamətdə işlərin sürətləndirilməsinin vacibliyini ifadə edib.

Tərəflər həmçinin iqtisadi-ticarət əlaqələrinin intensivləşdirilməsi perspektivlərini müzakirə ediblər.

İclas çərçivəsində Birgə Hökumətlərarası Komissiyanın həmsədrləri tərəfindən 3-cü iclasın yekunlarına dair Protokol imzalanıb. Sənəddə rəqəmsal iqtisadiyyat, elm, təhsil, gənclər, idman, mədəni-humanitar, sosial və turizm sahələrində tərəfdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

Bundan başqa, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi ilə Tatarıstanın "Ximqrad" Texnopolisinin "İnnovativ Sənaye Parkı - Yüksək Texnologiyalar sahəsində Texnopark"ı arasında əməkdaşlığa dair memorandum imzalanıb.

## Tatarıstan-Azərbaycan biznes-forumu keçirilib

Səfər çərçivəsində Kazanda Tatarıstan-Azərbaycan biznes-forumu keçirilib. Tədbirə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, enerji, sənaye, kənd təsərrüfatı, tikinti, İKT, maliyyə və konsaltinq sahələrində fəaliyyət göstərən şirkətlərin təmsilçiləri qatılıb.

Mikayıl Cabbarov Tatarıstanın sənaye zonalarında və qabaqcıl müəssisələrində tətbiq edilən müasir texnologiyaları (nou-hau) yüksək qiymətləndirib, Azərbaycan və Tatarıstan iqtisadiyyatlarının bir sıra oxşar xüsusiyyətlərə sahib olduğundan bu istiqamətdə uğurlu əməkdaşlıq qurulmasının vacibliyini bildirib. Belə ki, Azərbaycanda yaradılmış münbit investisiya mühiti və ölkəmizin əlverişli coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat-logistika infrastrukturu Tatarıstan sahibkarlarına geniş perspektivlər vəd edir.

Tatarıstan sahibkarlarının Azərbaycanda həyata keçirilən layihələrdə iştirak etməkdə maraqlı olduqlarını bildirən Oleq Korobçenko işgüzar tədbirlərin sahibkarlar arasında əlaqələrin qurulması və mövcud bağların səmərəliliyinin artırılmasında əvəzsiz rol oynadığını qeyd edib.

Azərbaycan Respublikasının Rusiyadakı səfiri Polad Bülbüloğlu, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Tatarıstan Respublikasının İnvestisiya İnkişafı Agentliyinin rəhbərinin birinci müavini İnsaf Vəliyev, Tatarıstanın Ticarət və Sənaye Palatası Şurasının İdarə Heyətinin sədri Şamil Aqeyev çıxışlarında iki ölkənin aidiyyəti qurumları və işgüzar dairələri arasında əməkdaşlığın inkişafına dair fikirlərini bölüşüblər.

Tədbirdə Tatarıstan və Azərbaycanda yaradılmış imkanlar, dəstək mexanizmləri və biznes təşəbbüsləri sahibkarların diqqətinə çatdırılıb, iştirakçı şirkətlər arasında B2B formatda görüşlər keçirilib.

Səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti Tatarıstan Respublikasının İnvestisiya İnkişafı Agentliyində də görüş keçirib. Agentliyin Vahid Təqdimat Mərkəzində iştirakçılar üçün Tatarıstanın iqtisadi və investisiya potensialı ilə bağlı təqdimat nümayiş olunub, Tatarıstan birgə investisiya perspektivlərinin reallaşdırılması imkanları müzakirə edilib.

# Tbilisidə ilk dəfə Azərbaycan, Türkiyə, Gürcüstan və Ermənistan jurnalistlərinin görüşü keçirilib

**Aprelin 29-da Tbilisidə Azərbaycan, Türkiyə, Gürcüstan və Ermənistan jurnalistlərinin ilk görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüş "Cənubi Qafqazda sülh və medianın rolu" mövzusunda keçirilən "dəyirmi masa" çərçivəsində reallaşıb.

Türkiyənin Beynəlxalq Jurnalistlər Şurasının (BJŞ) təşkilatçılığı ilə keçirilən "dəyirmi masa"da "Regional münaqişələrin həllində kütləvi informasiya vasitələrinin rolu" mövzusu müzakirə olunub.

BJŞ-nin Gürcüstan üzrə təmsilçisi, newsday.ge portalının redaktoru Avtandil Otanaşvili Cənubi Qafqazda gedən proseslərdən danışıb, münaqişələrin həllində KİV-in rolunu qeyd edib.

Sonra BJŞ -nin prezidenti Mehmet Ali Dim çıxış edərək dünyada müharibələrin yaratdığı problemlərdən danışıb. Bildirib ki, bütün müharibələr, münaqişələr və digər problemlərin həllində KİV mühüm rol oynayır. Bu tədbiri keçirməkdə məqsəd Azərbaycan ilə Ermənistan arasında 40 ilə yaxın müddətdə davam edən münaqişənin həllində KİV-in rolunu artırmaqdır.

Azərbaycanın Modern Media Qrupunun rəhbəri Elşad Eyvazlı münaqişələrin həllində jurnalistlərin rolunu qeyd edib. Dünyada gedən müharibələr zamanı jurnalistlərin də qətlə yetirildiyini, eyni zamanda Qarabağda AZƏRTAC və AzTV-nin əməkdaşlarının şəhid olduqlarını diqqətə çatdırıb.

Onun təklifi ilə münaqişə bölgələrində həlak olan jurnalistlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Çıxışında Azərbaycanın işğaldan azad olunan Kəlbəcər rayonundan olduğunu vurğulayan E.Eyvazlı deyib ki, işğaldan azad olunmuş kəndinə gedərkən gördükləri onları heyrətə gətirib: "Kəndin adı var evlər yoxdur, qəbiristanlıq var, məzarlar yoxdur, meşə var, ağac yoxdur. Bütün bunlar insanda çox acı təəssüratlar yaradır. Biz jurnalistlər çalışmalıyıq ki, bir daha analar övlad, bacılar qardaş, körpələr ata itirməsinlər",- deyə E.Eyvazlı vurğulayıb.

Ermənistanın "Arminform" agentliyinin direktoru Emmanuel Mkrtçyan azərbaycanlı jurnalistin fikirləri ilə razı olduğunu vurğulayıb və jurnalistlərin bu toplantısının keçirilməsini yüksək qiymətləndirib.

"Dəyirmi masada" Türkiyənin "Sabah" qəzetinin yazarı Yavuz Donat, "Youtuber" portalının redaktoru Ardan Zentürk, "Haber Global"ın aparıcı redaktoru Benan Kepsutlu, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Yeganə Hacıyeva, news.az portalının redaktoru Adnan Hüseyn, AZƏRTAC-ın Gürcüstan üzrə xüsusi müxbiri Xətayi Əzizov, 24news.ge portalının rəhbəri Azər Məmmədov, "Arqumentı i Faktı" qəzetinin əməkdaşı Miranda Oganezova, apsny.ge portalının direktoru, siyasi icmalçı Qoça Qvaramiya, "Armeninfo" agentliyinin direktoru Emmanuel Mkrtçyan və başqaları çıxış edərək tədbirin əhəmiyyətini yüksək qiymətləndiriblər. Bildirilib ki, bu cür tədbirlər Cənubi Qafqazda davamlı sülhə nail olunması istiqamətində mühüm işlərin görülməsinə yardımçı ola bilər.

Jurnalistlərin bu cür dördtərəfli görüşlərinin daha geniş tərkibdə İstanbulda, Bakıda və İrəvanda da keçirilməsinin vacibliyi qeyd edilib.

Toplantının sonunda yekun bəyannamə imzalanıb.

# Tbilisidə Azərbaycan və Ermənistan jurnalistlərinin görüşü olub

Tbilisidə Azərbaycan və Ermənistan jurnalistlərinin görüşü olub.

AZƏRTAC xəbər verir ki, Tbilisidə təşkil olunan "Cənubi Qafqazda sülh və medianın rolu" adlı toplantı çərçivəsində reallaşan görüşdə Azərbaycanın Modern Media Qrupunun rəhbəri Elşad Eyvazlı, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Yeganə Hacıyeva, news.az portalının redaktoru Adnan Hüseyin, AZƏRTAC-ın Gürcüstan üzrə müxbiri Xətayi Əzizov, İrəvanın "Armninform" agentliyinin direktoru Emmanuel Mkrtçyan, bu agentliyin şef redaktoru Zaruhi Qukasyan, "Arqumentı i Faktı" qəzetinin əməkdaşı Miranda Oganezova iştirak ediblər.

Görüşdə 44 günlük müharibədən sonra regionda yaranmış vəziyyət, iki ölkə arasında davamlı sülhə nail olmaq və uzunmüddətli sülh müqaviləsinin imzalanması istiqamətində jurnalistlərin rolu və digər məsələlər müzakirə olunub.

Tərəflər iki ölkə arasında davamlı sülhə nail olunması üçün səylərin artırılmasının, jurnalistlərin daha intensiv görüşlərinin təşkilinin, birgə mədəni tədbirlərin keçirilməsinin, eləcə də dezinformasiyalara qarşı mübarizə tədbirlərinin görülməsinin vacibliyini qeyd ediblər.

# TÜRKPA-nın Ankara Bəyannaməsində Azərbaycan üçün vacib məsələlər yer alıb




**Xəbər verdiyimiz kimi, aprelin 27-28-də Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) XII Plenar İclası keçirilib. İclas Ankara Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bəyannamədə Azərbaycan üçün bir çox vacib məsələlər əksini tapıb. Belə ki, sənəddə bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və qarşılıqlı hörmət əsasında Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına dəstək bir daha təsdiq olunur və bu prosesin Cənubi Qafqazda davamlı sülh, sabitlik və sülhün əldə edilməsində mühüm amil olacağına inam ifadə olunur.

Sənəddə həmçinin qovulmuş etnik azərbaycanlıların hüquqlarının həyata keçirilməsinə, beynəlxalq proses çərçivəsində öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaları üçün dinc səylərinə dəstək ifadə olunur. Bu, Cənubi Qafqazda regional barışıq və normallaşma üçün mühüm məqam hesab edilir.

Bəyannamədə münaqişədən sonra davam edən bərpa, yenidənqurma və reinteqrasiya səylərində Azərbaycan Respublikası ilə həmrəylik ifadə olunur, üzv və müşahidəçi dövlətlər bu prosesə dəstək və töhfə verməyə dəvət edilir, eyni zamanda bu istiqamətdə əldə etdiyi nailiyyətlər, o cümlədən işğaldan azad edilmiş ərazilərin bərpasında və regionun beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsində mühüm rol oynayan Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarının açılması münasibətilə Azərbaycana təbrik ünvanlanır.

Təşkilata üzv dövlətlər, həmçinin Azərbaycanın Qarabağ iqtisadi rayonunda Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarı və onların Laçın-Xankəndi yolu ilə qanunsuz dövriyyəsi ilə bağlı Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının narahatlığını nəzərə alır, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat çərçivəsində müstəsna olaraq humanitar məqsədlər üçün nəzərdə tutulan bu yoldan sui-istifadəyə qarşı keçirilən dinc etiraz aksiyaları ilə həmrəy olduğunu bildirir.

Qoşulmama Hərəkatına (QH) və onun Parlament Şəbəkəsinin (QHPŞ) Azərbaycan sədrliyinin hərəkat çərçivəsində əməkdaşlığın gücləndirilməsinə verdiyi töhfə bəyannamədə yüksək qiymətləndirilir, üzv ölkələr QHPŞ-nin müvafiq olaraq 2022-ci il 30 iyun-1 iyul 2022-ci il və 13 mart 2023-cü il tarixlərində keçirilmiş Bakı və Manama konfranslarına uğurla evsahibliyi edilməsi münasibətilə təbriklərini bildirir və konfransların nəticələrini təqdir edirlər. Bundan başqa, 9-11 mart 2023-cü il tarixlərində 10-cu Qlobal Bakı Forumunun "Dünya bu gün: çağırışlar və ümidlər" mövzusunda uğurla təşkil edilməsi münasibətilə Azərbaycan Respublikasına təbrik ifadə olunur.

Sənəddə siyasi müdrikliyi və rəhbərliyi ilə Azərbaycanın dövlətçilik və inkişaf tarixində silinməz iz qoymuş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması alqışlanır.

TÜRKPA-ya üzv dövlətlərin təmsilçiləri motivindən asılı olmayaraq, bütün forma və təzahürlərində terrorizmi birmənalı şəkildə pisləyir və terrorizmə qarşı güclü həmrəylik nümayiş etdirir, təhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsində parlamentlərin rolunu vurğulayır və üzv dövlətləri terrorizm, radikalizm, terrorizmə səbəb olan ekstremizm və separatizmə qarşı mübarizədə əməkdaşlığı genişləndirməyə və bu məqsədlə beynəlxalq forumlarda səyləri əlaqələndirməyə çağırır.

Digər mühüm məqamlardan biri də sənəddə Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə qarşı törədilən silahlı hücumun pislənilməsi və bütün təqsirkarların məsuliyyətə cəlb edilməsi üçün tez və hərtərəfli araşdırmanın aparılmasına çağırışın səsləndirilməsidir.

O cümlədən bəyannamədə nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığın gücləndirilməsi və regionun nəqliyyat əlaqələrinin yaxşılaşdırılması, tranzit potensialının artırılmasına töhfə verəcək Zəngəzur dəhlizinin tezliklə açılması daxil olmaqla, nəqliyyat infrastrukturunun daha da inkişaf etdirilməsi təşviq olunur.

*"Azərbaycan"*

# Milli Məclisdə ilk dəfə dövlət qulluğuna qəbul ilə əlaqədar yazılı imtahan keçirilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində aparılan islahatların davamı olaraq, cari il fevralın 4-də Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə parlamentdə ilk dəfə Milli Məclis Aparatının hüquqşünas ixtisası üzrə vakant dövlət qulluğu vəzifələrinə qəbul ilə əlaqədar müsabiqə elan edilib. Müsabiqə iki mərhələdən - yazılı imtahan və müsahibədən ibarətdir.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, aprelin 29-da Milli Məclisin inzibati binasında müsabiqənin birinci mərhələsi üzrə yazılı imtahan keçirilib. İmtahandan əvvəl parlament Aparatının rəhbəri Fərid Hacıyev Milli Məclis Sədrinin adından namizədləri salamlayıb, onlara uğurlar arzulayıb. 3 qrup şəklində keçirilmiş imtahanda hüquqşünas ixtisası üzrə ali təhsilə malik olan və sənədlərini bu il martın 3-dək müvafiq qaydada təqdim etmiş 364 namizəd iştirak edib.

Yazılı imtahan mərhələsində iddiaçıların nəzəri bilikləri və Azərbaycan Respublikasının qanunvericiliyinə bələdliyi yoxlanılacaq.

İmtahanın nəticələri və müsabiqənin növbəti mərhələsi barədə əlavə məlumat veriləcək.

*"Azərbaycan"*

# Avropa demokratiya və idarəetmə komitəsinin yaşıl dövlət idarəçiliyinə dair konfransı başa çatıb

**Avropa demokratiya və idarəetmə komitəsi (CDDG) və Nazirlər Komitəsinə sədrlik edən İslandiyanın birgə təşkilatçılığı ilə Strasburqda keçirilən "Yaxşı demokratik idarəetmə kontekstində yaşıl dövlət idarəçiliyi: Avropanın yaxşı təcrübələrinin mübadiləsi" mövzusunda konfrans başa çatıb.**



AZƏRTAC xəbər verir ki, Avropa Şurasına üzv dövlətlərin rəsmi nümayəndələrinin qatıldıqları konfransda Azərbaycanı Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin bu komitə üzrə nümayəndəsi Vüqar Əliyev təmsil edib.

Konfransda Avropa Şurasına üzv ölkələrin dövlət və hökumət başçılarının bu il mayın 16-17-də İslandiyanın paytaxtı Reykyavikdə keçiriləcək 4-cü Zirvə görüşünə hazırlıq məsələləri, eləcə də Zirvə görüşünün gündəliyinin layihəsi müzakirə olunub.

Bu gün ətraf mühitin deqradasiyası və qlobal istiləşmə ilə bağlı təhdidlər, təbii ehtiyatların azalması, biomüxtəlifliyin itirilməsi, istehsal üsulları, qeyri-davamlı istehlak və artan dünya əhalisi, iqlim və ekoloji problemlərin həlli beynəlxalq siyasi gündəmin əsas mövzularıdır. Bu baxımdan konfrans "yaşıl dövlət idarəçiliyi" hədəflərinin və onların təşviqi yollarının müəyyənləşdirilməsində, ətraf mühit, iqlim dəyişikliyi mülahizələrinin qərarların qəbuluna inteqrasiyasının təşviqində aparıcı rol oynayır.

Panel müzakirələrdə ekspertlər "yaşıl dövlət idarəçiliyi"nin vacibliyi, hökumətlərin nəzərdən keçirməli olduqları aktual siyasət prioritetləri, onların təyin edilməsi, demokratik idarəetmə prinsiplərinin transformasiya proseslərində rolu, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsi üçün əsas ictimai və siyasi problemlər, onların öhdəsindən gəlinməsi yolları, iqtisadiyyatın və cəmiyyətin yaşıl keçidinin demokratik legitimliyinin təyin edilməsi kimi məsələlər ətrafında fikirlərini bölüşüblər.

Bildirilib ki, dövlət idarəçiliyi daha dayanıqlı iqtisadiyyata keçiddə əsas lider ola bilər. Çünki o, konkret hədəflərin müəyyən edilməsi, daxili təlimatların tətbiqi, yaşıl büdcənin və satınalmanın təşviqi, xarici tərəfdaşların səylərini dəstəkləmək də daxil olmaqla, geniş fəaliyyət mexanizmlərinə malikdir.

Konfransda üzv dövlətlərin yaxşı təcrübələri müzakirə olunub və mümkün tövsiyələr müəyyənləşdirilib.

# İlham Əliyev qətiyyətinin təntənəsi

## Laçın-Xankəndi yoluna nəzarət edirik, Şuşada, Ağrıda, Murovda və Zəngəzur dağlarında dalğalanan bayrağımız düşmənə gözdağıdır

*Əvvəli 1-ci səh.*

Həmçinin Hayastan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi. Məhz bu səbəbdən də Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir.

Azərbaycan Prezidentinin qətiyyətli fikirləri qarşısında Hayastanı müdafiə edə bilməyən Ketrin Kolonna isə başqa fikirlər səsləndirdi. Onun dediyinə görə, guya Fransa Azərbaycanda və ümumiyyətlə, Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu deyib.

Təbii ki, xanım nazirin səfərdə məqsədi Azərbaycana təzyiq edərək nəzarət-keçid məntəqəsinin aradan qaldırılmasına nail olmaq idi. Bununla o, Ermənistana xoş müjdə vermək istəyirdi. Amma həm Prezident İlham Əliyev, həm də xarici işlər naziri Ceyhun Bayramovla görüşdən sonra Fransa rəsmisi Bakıdan əliboş getdi. Azərbaycan yenə də öz qətiyyətli mövqeyini bir daha ortaya qoydu.

Hayastana ayaq basan kimi xanım nazir "maskasını çıxardı" və əsl məqsəd və niyyətini nümayiş etdirdi. Belə ki, aprelin 28-də Katrin Kolonna Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla keçirdiyi birgə mətbuat konfransında əsassız iddialar səsləndirib Laçın yolunun başlanğıcında keçid-nəzarət məntəqəsinin quraşdırılmasının "qəbuledilməz" olduğunu iddia etməklə Fransanın ermənipərəst mövqeyini bir daha göstərdi.

Maraqlıdır ki, xanım nazir nədən bu fikirləri Bakıda olarkən səsləndirmədi?! Çünki dəqiq bilirdi ki, İlham Əliyevin qətiyyətli və ədalətli fikirləri qarşısında aciz qalacaq və Hayastanda "əziz" bacı kimi qarşılanmayacaqdı.

Əlbəttə ki, bu, Azərbaycanın daxili işidir, öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsi hüququna sahibdir. Buna qarşı müdaxilə ölkəmizin suverenliyi və ərazi bütövlüyünə təhdiddir. Sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsi isə tamamilə yanlışlıqdır. Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmaqla təkcə ermənilərin növbəti təxribatlarının qarşısını almadı, həm də öz ərazi bütövlüyünü tam bərpa etdiyini hamıya bir daha təsdiqlədi.

Təbii ki, bu səfər çərçivəsində Fransadan başqa heç bir xoş niyyət gözləmək də olmazdı. Azərbaycana qarşı dünyada müxtəlif kampaniyaların təşkil edilməsi, təzyiqlər etmək üçün cəhdlər xarici mediada ölkəmizin əleyhinə qara piarın aparılması, Fransanın əsl xislətinin göstəricisidir.

Göründüyü kimi, yenə də Azərbaycanın daxili işlərinə qarışmaq müxtəlif formada davam etdirilir. Lakin hər kəsə bəllidir ki, heç bir təzyiq İlham Əliyevi qətiyyətli mövqeyindən geri döndərə bilməz. Azərbaycan öz qətiyyətli mövqeyini ortaya qoyur.

Ümumiyyətlə, atılan hər bir addımı şərtləndirən mühüm məqamlar mövcuddur. Ermənilərin Laçın yolu ilə Qarabağa silah-sursat daşımaları, Qarabağda hərbi kontingent formalaşdırmağa cəhd göstərmələri, eyni zamanda təbii sərvətlərimizin talanması və Laçın yolu ilə Ermənistana daşınması Azərbaycanı narahat etməyə bilməzdi. Dövlətimiz bununla bağlı ən yüksək tribunalardan sərt mövqeyini açıqlasa da, qarşı tərəf yenə də qanunsuz əməllərindən, təxribatlarından əl çəkmir, açıq-aşkar beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlik nümayiş etdirir.

Fransanın isə qərəzli yanaşmalar sərgiləmək əvəzinə, Hayastanı razılaşmalardan irəli gələn öhdəliklərin yerinə yetirməsinə təşviq etməsi və Azərbaycana qarşı təxribatlardan çəkindirməsi daha faydalı olardı. Çünki Azərbaycanla bundan sonra heç bir təzyiq, təhdid dili ilə danışmaq mümkün deyil. Qüdrətli Azərbaycan Qarabağ münaqişəsini tarixin arxivinə göndərib və bu gün ancaq sülh sazişindən danışmaq mümkündür. Fransa yalnız bu istiqamətdə prosesə töhfə verə bilər. Başqa hansısa qərarı dəyişməyə bu ölkənin gücü, təzyiqi yetməz.

Bu gün Qarabağ və Şərqi Zəngəzur dağlarında dalğalanan Azərbaycan bayrağı hər şeyi göstərir. Bu ərazilər Azərbaycanın tərkib hissəsidir. Həmin ərazilərdə istənilən infrastrukturun, nəzarət-keçid məntəqəsinin, gömrük postunun yaradılması Azərbaycanın daxili işi, suveren hüququn yaratdığı reallıqdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti Füzuli və Şuşada olub

**Xəbər verildiyi kimi, Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə ölkəmizdə səfərdədir.**






Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 28-də qonaqlar Füzuli və Şuşa şəhərlərinə səfər ediblər. Nümayəndə heyətinə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı sayəsində işğaldan azad edilmiş Füzuli və mədəniyyət paytaxtımız olan Şuşa şəhərində dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıqları ilə həyata keçirilən genişmiqyaslı təmir-bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilib.

Qonaqlar ilk öncə Qarabağın hava qapısı hesab olunan sosial-iqtisadi əhəmiyyətə malik Füzuli Beynəlxalq Hava Limanı ilə yaxından tanış olub, onlara bütün müasir və beynəlxalq standartlara cavab verən aeroportda yaradılmış şərait barədə geniş məlumat verilib.

Nümayəndə heyətinin üzvləri yolboyu erməni işğalçıları tərəfindən Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri olmuş Füzulinin məqsədyönlü olaraq vəhşicəsinə viran edilmiş yaşayış məskənlərinin və infrastruktur obyektlərinin, insanlığı dəhşətə gətirən vandalizmin əyani şahidi olublar.

Şuşada qonaqlar Ümummilli Lider Heydər Əliyevin müdaxiləsi ilə qorunub saxlanmış görkəmli sənət xadimləri - Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstlərini ziyarət ediblər.

Cıdır düzünü ziyarət edən nümayəndə heyətinə heyrətamiz mənzərəyə malik ərazinin şuşalıların və Şuşaya gələn qonaqların ən sevimli məkanı, çövkən oyunları, Novruz və digər el şənliklərinin keçirildiyi seyrəngahı olduğu bildirilib.

Qonaqlar erməni vandalizminə məruz qalmış və işğal bitdikdən sonra ölkə başçısının rəhbərliyi ilə əvvəlki görkəmində tam bərpa edilmiş Vaqifin məqbərəsini, tarixi Qala divarlarını, Azərbaycan vokal sənətinin banisi Bülbülün ev-muzeyini ziyarət ediblər.

Qısa vaxtda görülmüş genişmiqyaslı işlərin böyük təəssürat yaratdığı vurğulanıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri başa çatıb.

# QHT-lər Ermənistanın mina terroru ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ediblər

**Aprelin 29-da Azərbaycanın vətəndaş cəmiyyətinin və hüquq müdafiə təşkilatlarının nümayəndələri Ermənistanın Azərbaycana qarşı davam edən mina terroru ilə bağlı mətbuat konfransı keçirərək beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıblar.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Əməkdaşlıq Mərkəzinin sədri Azay Quliyev aprelin 28-də Tərtər rayonunda mina partlayışı nəticəsində həlak olan 3 mülki vətəndaşımıza Allahdan rəhmət diləyib, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Azay Quliyev Ermənistanın mina terrorunun qurbanlarının durmadan artdığını, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyədək ümumilikdə 301 nəfərin mina qurbanı olduğunu, onlardan 57-sinin həyatını itirdiyini bildirərək deyib: "Tərtərdə baş verən mina partlayışının əsas səbəbi Azərbaycana yararlı və düzgün mina xəritəsi təqdim etməyən Ermənistanın beynəlxalq konvensiyalara, o cümlədən üçtərəfli Bəyanatın 6-cı bəndinə əməl etməməsi, öhdəliklərini kobud şəkildə pozmasıdır. 2022-ci ilin avqustundan etibarən Ermənistan 2021-ci ildə, yəni müharibə başa çatandan sonra istehsal etdiyi 2700-dən çox minanı Laçın yolundan sui-istifadə etməklə Qarabağa gətirib və onları ərazilərimizdə basdırıb. Məqsəd postmünaqişə dövründə Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmalarına və öz yerlərində dinc yaşamalarına maneə yaratmaqdır".

Azay Quliyev diqqətə çatdırıb ki, beynəlxalq ictimaiyyət və aparıcı dövlətlər hələ də Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə və xüsusilə Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi müharibə cinayətlərinə göz yummaqda israr edir.

Çıxış edən QHT sədrləri Azər Allahverənov, Nurəddin Mehdiyev, Günel Səfərova, Hafiz Səfixanov, Novella Cəfərova, Səltənət Qocamanlı, Vüsalə Hüseynli, Hafiz Həsənov, Rey Kərimoğlu, İlqar Hüseynli, Telman Qasımov, Elşad Məmmədli, Şəmsəddin Əliyev, Cəsarət Hüseynzadə, Əkrəm Bəydəmirli, Səadət Bənanyarlı, Rafiq İsmayılov və Ramil İskəndərli beynəlxalq ictimaiyyətin Ermənistan tərəfindən törədilən müharibə cinayətlərinə laqeyd qalmasını pisləyib, bu cür ikili yanaşmadan ciddi narahat olduqlarını bildiriblər. "Biz təkcə müraciət etməklə kifayətlənməməli, eyni zamanda Ermənistanın cəzalandırılması üçün real hüquqi mexanizmlərdən yararlanmalı, Ermənistanın mina terrorunu dayandırmaq üçün yerli və beynəlxalq səviyyələrdə ən müxtəlif məlumatlandırma kampaniyaları və tədbirləri təşkil etməliyik", - deyə QHT sədrləri vurğulayıblar.

Mətbuat konfransında Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri Ramil İskəndərli qeyd olunan təkliflər əsasında beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatı səsləndirib.

Bəyanat QHT-lər tərəfindən imzalanıb.

Tədbir iştirakçıları bundan sonrakı fəaliyyətin daha sistemli, ardıcıl və effektiv şəkildə qurulması məqsədilə 15 nəfərdən ibarət İşçi Qrupunun yaradılması haqqında qərar qəbul ediblər.



# Heydər Əliyev İli 2023



# BTC-nin təməli qoyularkən...

## Xarici jurnalistlər Heydər Əliyevin nitqinə heyran qalmışdılar

2002-ci ilin 18 sentyabr günü idi. Bakıdan Səngəçala doğru böyük bir avtomobil karvanı irəliləyirdi. Bu möhtəşəm karvan Ulu Öndər Heydər Əlivevlə yanaşı, Gürcüstanın və Türkiyənin prezidentlərini, ABŞ-nin energetika nazirini, dünyanın neçə-neçə nəhəng neft şirkətinin rəhbərlərini, onlarca yerli və xarici jurnalisti Səngəçal terminalına aparırdı.

O vaxt terminal indiki terminal deyildi, hələ genişləndirilirdi, müasir regional neft-qaz ixracı mərkəzinə çevrilmək üçün böyük bir inşaat meydanını xatırladırdı. Həmin gün burada, açıq səhrada göy çadırlardan "iclas salonu" qurulmuşdu. Səngəçalda üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməli qoyulurdu...

Küləkli bir gün idi, tikinti gedən ərazidə bəzən toz dumana qarışırdı. Ancaq bu, tədbirin gedişinə mane olmurdu. Həmin vaxtadək BTC-nin qarşısında çox "külək"lər əsmişdi. Kəmərin çəkilişinə həm ölkə daxilində, həm də xaricdə mane olmaq istəyənlər az deyildi. Gah deyirdilər ki, Azərbaycanın belə bir kəməri doldurmaq üçün yetərincə nefti yoxdur. Gah xəttin seysmik zonalardan keçəcəyini, gah da təbiətə ziyan vuracağını söyləyərək yüz bəhanə ilə layihənin gerçəkləşməsinə əngəl törətməyə səy göstərirdilər.

BTC isə irəliləyirdi. Heç bir maneəyə baxmayaraq cızılmış yola - qurulmuş plana və tutulmuş qrafikə uyğun qabağa gedirdi. Çünki müəllifi Heydər Əliyev idi! Çünki Heydər Əliyev dühasından yaranırdı, Heydər Əliyevin yeni neft strategiyasının "məhsulu" idi!

Əvvəlcə iclas keçirildi. Ulu Öndər çıxış etdi. Möhtəşəm bir çıxış! Ümummilli Liderin bu çıxışı da öz əhatəliliyi, məzmunu, ifadə zənginliyi ilə digər iştirakçıların çıxışından fərqlənirdi. Həmin günün, tarixi hadisənin iştirakçısı olmaq, həmin parlaq çıxışı dinləmək bu qeydlərin müəllifinin də qismətinə düşmüşdü. Ulu Öndərin hər fikri, hər müddəası, nəhayət, ədəbiyyat, publisistika baxımından zəngin cümlələri, maraqlı bənzətmələri, illər keçmiş olsa belə hələ də hafizəmizdə qalıb.

Ümummilli Lider BTC-nin xalqımızın və regionun gələcəyi üçün görülən mühüm işlərdən biri olduğunu dedi. Kəmərin iqtisadi əhəmiyyətini qeyd etməklə yanaşı, siyasi dividendlər gətirəcəyini də vurğuladı. Dedi ki, bu polad kəmər Azərbaycanı və regionun, Avropanın ölkələrini bir-birinə sıx bağlayacaq. Ulu Öndər burada "polad kəmər" ifadəsini həm bir boru xətti mənasında işlətdi, həm də onu obrazlı şəkildə xalqları, ölkələri bir-birinə bağlayan həqiqi kəmərə bənzətdi. Bu cür mahir ifadə tərzinə, bu cür nitq gözəlliyinə tədbirdə iştirak edən jurnalistlər bir daha heyran qalıb dinmədən bir-birinin üzünə baxdılar...

Xarici jurnalistlər bu çıxışı qulaqcıqlar vasitəsilə dinləyirdilər. Hər kəs öz dilində. Tərcümə sinxron şəkildə gedirdi. Belə ekspromt tərcümənin keyfiyyəti Ümummilli Liderin fikir və ifadələrini incəliklərinə qədər hansı dərəcədə çatdıra bilirdi, demək çətindir. Bununla belə, əcnəbi həmkarlarımız tədbirdən sonra ingilis, rus dillərində bir-birinə söyləyirdilər ki, Azərbaycanın Prezidenti möhtəşəm danışdı. Öz aralarında "bravo", "super" sözlərini işlədirdilər.

O zamanlar BTC-ni üç dənizin əfsanəsi adlandırırdılar. Xəzəri, Qara dənizi və Aralıq dənizini birləşdirəcək bu xəttin çəkilişinin baş tutacağı həqiqətən əfsanəyə bənzəyirdi. Lakin Heydər Əliyev bəyan etdi: "Biz artıq əfsanədən həqiqətə gəlmişik!"

Qısa arayış: Uzunluğu 1768 kilometr olan BTC Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilib. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş,Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keşdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Kahramanmaraş, Osmaniyə və Adanadır.

BTC əvvəvcə gündə bir milyon barel neft ötürmək gücündə layihələndirilmişdi. 2009-cu ilin yazından isə onun gündəlik ötürücülük qabiliyyəti 1,2 milyon barelə çatdırıldı. Kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçalda yerləşir. İkinci stansiya da ölkəmizin ərazisində, Yevlax rayonundadır. Daha iki stansiya Gürcüstanda fəaliyyət göstərir. Qalan dörd stansiya Tükiyənin payına düşür.

Əlbəttə, belə bir nəhəng qurğunun araya-ərsəyə gəlməsi asan bir məsələ deyildi. Bu "əfsanə" Heydər Əliyev dühası, onun qətiyyəti, dünyadakı nüfuzu sayəsində gerçəkləşirdi. Ulu Öndər böyük siyasətçi uzaqgörənliyi və intuisiyası ilə layihənin qarşısında hələ çox maneənin olacağını da yəqin etmişdi. Lakin öz strategiyasının qalib gələcəyini böyük əminliklə həmin sentyabr günündə Səngəçal terminalında bəyan etdi: "BTC irəliyə gedəcək, gedəcək, gedəcəkdir!"

Bu həm də BTC-nin bədxahlarına tutarlı bir mesaj idi!

BTC layihəsini Prezident İlham Əliyev başa çatdırdı. 2006-cı il iyulun 13-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təntənəli açılış mərasimində dövlətimizin başçısı keçilmiş yola bir daha nəzər saldı: "Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı-Tbilisi-Ceyhan neft kəmərinə inam o qədər böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayan var idi, eyni zamanda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi".



BTC-nin salnaməsi yeni uğurlarla getdikcə daha da zənginləşir. Bu sırada 2002-ci ilin 18 sentyabr gününün xüsusi önəmi var. Məntiqlə yanaşdıqda cəsarətlə demək olar ki, bu həm də ondan sonra gələn neçə-neçə qlobal neft-qaz və ixrac layihəsinin təməlinin qoyulduğu gün idi.

Ümummilli Liderimiz "BTC irəliyə gedəcək, gedəcək, gedəcəkdir!" demişdi. Öz yaradıcısının adını şərəflə daşıyan BTC zamanın bütün sınaqlarından çıxaraq irəliləyir. Bu il Türkiyədə baş verən dəhşətli zəlzələ belə onun borularına ziyan vura bilməmiş, neftin nəqli Ceyhanadək fasiləsiz davam etmişdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ümummilli Liderin 100 illik yubileyi ilə əlaqədar ağacəkmə aksiyaları keçirilib



Müstəqil Azərbaycanın memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Xarici İşlər Nazirliyi (XİN) tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Bakının Müşfiqabad qəsəbəsində "Heydər Əliyev 100 - Yaşıl Gələcək" adlı ağacəkmə aksiyası təşkil olunub.

XİN-in Mətbuat xidməti idarəsindən bildirilib ki, tədbirin keçirilməsində əsas məqsəd ölkədə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdən ibarət olub. Tədbir zamanı ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 Eldar şamı və zeytun ağacı əkilib.

Qeyd edək ki, tədbirdə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, hər iki nazirliyin rəhbər şəxsləri və əməkdaşları, ölkəmizdə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların rəhbərləri, eləcə də diplomatiya könüllüləri, ekokönüllülər, habelə media nümayəndələri iştirak ediblər.

❖ ❖ ❖



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, həmçinin ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələri ilə əlaqədar aprelin 29-da Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Prokurorluğu da ağacəkmə aksiyasına qoşulub.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, tədbir çərçivəsində Abşeron rayonu və Naxçıvan şəhəri ərazisində ümumilikdə 1600-dən çox zeytun və şam ağacları əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

❖ ❖ ❖



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birgə paytaxtın Nərimanov rayonundakı Məmməd Araz və Aşıq Molla Cümə küçələri boyunca olan ərazidə ağacəkmə aksiyası təşkil edilib.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən bildiriblər ki, aksiyada hər iki qurumun rəhbərləri, əməkdaşları və struktur bölmələrin işçiləri iştirak ediblər.

Aksiyanın keçirildiyi ərazi yararsız tullantılardan təmizlənərək orada Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun yeni ağaclar əkilib. BŞİH və komitə tərəfindən gələn həftə də minlərlə yeni ağac əkiləcək.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin doğum günü ərəfəsində keçirilən aksiya bu ərazidə ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Aksiya zamanı əkilən ağaclara gələcəkdə qulluq göstərilməsi üçün suvarılma məsələləri həll edilib, cavabdehlər müəyyənləşdirilib.

Yaz mövsümü ərzində Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin davam etdirilməsi nəzərdə tutulub.

***AZƏRTAC***

# Milli maraqlarımız qətiyyətlə təmin olunur

## Fransa fitnəkarlığından əl çəkmir

### Rəsmi Parisin qərəzli və beynəlxalq hüquqa zidd olan bəyanatları qəbuledilməzdir

**Fransanın ermənipərəst mövqeyi, terrorizmi dəstəkləməsi, hər zaman Ermənistan tərəfdən çıxış etməsi açıq-aydın ortada olub. Vətən müharibəsindən ötən dövrdə işğalçı Hayastana daha çox havadarlıq etməsi isə bu ölkənin riyakar siyasətindən xəbər verir. Sözdə Cənubi Qafqazda təhlükəsizliyi, sabitliyi dəstəklədiyini bildirən, əməldə bunun tam əksini sübut edən ölkələrdən biri olan Fransa müxtəlif vasitələrlə Ermənistana arxadayaq durur.**





Dəstək alan, silahlandırılan Ermənistan isə xislətinə uyğun olaraq təxribatlarını davam etdirir. Tarixdən bəllidir ki, Ermənistan daim müxtəlif ölkələrin oyuncağına çevrilib. Elə indi də regionda əmin-amanlığın bərqərar olmasını istəməyən qüvvələr haylardan istifadə edirlər.

Azərbaycanın Laçın-Xankəndi yolunun başlanğıcında gözlənilən təhdidlərin və təxribatların qarşısını almaq üçün öz suveren ərazisində nəzarət-buraxılış məntəqəsi qurması bəziləri kimi Fransanı da narahat edib. Fransanın Avropa və xarici işlər naziri Ketrin Kalonnanın da Cənubi Qafqaza səfəri təsadüfi deyildi. Azərbaycana səfərində Prezident İlham Əliyev və xarici işlər naziri Ceyhun Bayramovla görüşündən sonra o, İrəvana üz tutdu, Ermənistanda keçirdiyi görüşlərdə Laçın yolundakı vəziyyət, Qarabağla bağlı digər məsələlər ətrafında müzakirələr apardı. Onun İrəvanda birtərəfli, əsassız, qərəzli, Ermənistana dəstək ifadə edən çıxışları Fransanın mövqeyini bir daha göstərdi. Terrorçunun yanında olan Fransa Azərbaycanın daxili işi olan öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsinə burun soxaraq ölkəmizin suverenliyi və ərazi bütövlüyünə zidd olan bəyanatlar verdi.

Hər kəsə bəllidir ki, Azərbaycanın Ermənistanla sərhəddə nəzarət-keçid məntəqəsi qurması ölkəmizin suveren hüququdur, daxili işi, həmçinin beynəlxalq hüquq çərçivəsində atılmış addımdır. Amma Ketrin Kalonna bunu başa düşmək istəmir. O, yolun bağlı olması kimi əsassız məlumatlar verməklə yanaşı, həm də daxili işlərimizə qarışır. Ölkəmiz dəfələrlə bəyan edib ki, bu məsələnin Fransaya və onun timsalında heç kimə aidiyyəti yoxdur.

### Fransa beynəlxalq hüquq normalarına riayət etmir

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında bildirib ki, Fransanın Azərbaycana qarşı münasibətində Ermənistandan daha çox ermənistanlıq etmək istədiyi görünür. Fransa Azərbaycanın daxili işlərinə kobud şəkildə qarışır. Ölkəmizə qarşı siyasi təzyiq göstərməyə, öz aləmində bizi milli maraqlarımızdan kənara çəkilməyə məcbur etmək istəyir. Laçın yolunun başlanğıcında Azərbaycan özünün suveren hüququ olan sərhəd- keçid məntəqəsi qurduqdan dərhal sonra Fransa xarici işlər nazirinin regiona gəlməsi və Azərbaycan əleyhinə bəyanatlar verməsi bir daha göstərir ki, Fransa bu gün özünü erməni maraqlarının bir nömrəli müdafiəçisi hesab edir.

A.Mirzəzadə deyib ki, Fransa Ermənistanın daxili işləri ilə bağlı nələrsə edə bilər, amma Azərbaycanın suveren hüquqlarına qarışa bilməz, buna haqqı yoxdur: "Azərbaycan ona heç vaxt imkan verməyəcək. Fransa ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olmasına baxmayaraq, həmişə birtərəfli mövqe tutub. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyib. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanı torpaqlarını işğaldan azad etməkdən çəkindirməyə çalışıb. Fransa nazirinin regiona son səfəri də bir daha göstərdi ki, bu ölkə hələ beynəlxalq hüquq normalarına riayət edə bilmir".

Ketrin Kalonnanın Ermənistanda verdiyi bəyanatların Fransanın düşüncəsində, xarici siyasət kursunda hələ də kardinal dəyişikliklər edə bilmədiyini göstərdiyini deyən deputat əlavə edib ki, Hayastandakı səfirliyin nəzdində hərbi missiyanın yaradılması isə Fransanın regiona hərbi kontingentlə daxil olmaq istəyini göstərir. Bununla o, vəziyyəti daha da gərginləşdirir, rəsmi Parisin tarixinə qara ləkə yazır. Fransının hərbi kontingenti hansı ölkədə olursa, orada böyük gərginlik, qarşıdurma, hətta vətəndaş müharibəsi baş verir. Ermənistan bilməlidir ki, Fransanın hərbi missiyasını orada yerləşdirməsi ilk növbədə özünə zərər verəcək.

Deputat vurğulayıb ki, Azərbaycanın öz hüquqlarını qorumaq bacarığı, iradəsi var. Milli maraqlarını qorumaq üçün dövlətlə xalq birlikdə hərəkət edir. "Azərbaycan xalqı Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir. Bu birliyi bütün dünya görür, Fransa da bunu görməlidir. Ketrin Kalonnanın bəyanatlarının isə Fransa və Ermənistan auditoriyasından kənarda heç bir təsir imkanı yoxdur. Heç Fransada da Makronun Azərbaycanla bağlı apardığı siyasət qəbul edilmir. Fransa birdəfəlik bilməlidir ki, Azərbaycan müstəqil dövlətdir, bizimlə dostluq etmək lazımdır. Ermənistanın işğalçılıq siyasətini müdafiə etmək həm Ermənistan, həm də Fransanın gələcək inkişafına mane olan faktorlardan biridir", - deyə Aydın Mirzəzadə bildirib.

### Azərbaycan atdığı addımlara görə kiməsə hesabat vermək öhdəliyi götürməyib

Milli Məclisin deputatı Arzu Nağıyev qeyd edib ki, Fransa Ermənistandan istifadə edərək regionda özünə yer tutmağa çalışır. Fransanın burada həm iqtisadi, həm siyasi maraqları var: "Azərbaycan-Ermənistan sərhədinə Avropa İttifaqı monitorinq missiyasının yerləşdirilməsi ilə onların burada həm də hərbi maraqları olduğunu gördük. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi Fransanın istəyinə uyğun deyil. Rəsmi Parisə məlumdur ki, Rusiya sülhməramlı kontingentinin nəzarətində olan ərazilərə silah-sursat və terrorçu qruplar daşınır".

Azərbaycanın separatçıların yolunu bağladığını qeyd edən Arzu Nağıyev bildirib ki, nəzarət-buraxılış məntəqəsinin qurulması münaqişəni alovlandırmaq üçün əlindən gələni edən bəzi qüvvələrin planlarını altüst edir. Ona görə də Azərbaycanın bu addımından sonra erməni diasporunun təsiri altında olan, eyni zamanda Cənubi Qafqazda üstünlük əldə etmək istəyən qüvvələr ölkəmizə qarşı yenidən hərəkətə keçiblər. Həmçinin nəzarət-keçid məntəqəsinin qurulması ilə bağlı əsassız fikirlər səsləndirirlər. Bunlar bir daha göstərir ki, bəzi ölkələr bunu qəbul edə bilmir.

Deputat qeyd edib ki, Azərbaycan atdığı addımlara görə kiməsə hesab vermək öhdəliyi götürməyib. "Ermənistan isə Azərbaycandan qopara bilmədiklərini Fransa vasitəsilə əldə etmək istəyir. Fransa XİN rəhbərinin Ermənistanda səsləndirdiyi fikirlər reallıqdan uzaq, absurd təfəkkürün məhsuludur", - deyə deputat əlavə edib.

Ketrin Kalonnanın həmişə olduğu kimi, Ermənistanda keçirdiyi görüşlərdə qərəzli bəyanatlarla yadda qaldığını bildirən A.Nağıyev deyib ki, o, vaxtilə ATƏT-in Minsk qrupu həmsədrliyində təmsil olunan zaman dedikləri sözləri təkrarlayıb. Sülhün bərqərar olması istiqamətində addım atılması ilə bağlı hər hansı ciddi bəyanat verməyib. Xankəndi və Bakı arasında birbaşa danışığın məhz beynəlxalq səviyyədə keçməsini yenə təklif edib. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, bu, bizim daxili məsələmizdir. Digər müzakirə mövzusu isə Laçın dəhlizi ilə bağlı idi. Onların fikrincə, qurulan nəzarət-buraxılış məntəqəsi demontaj edilməlidir. Yolun açılması ilə bağlı verilən bəyanatlar isə heç bir məntiqə sığmır, çünki Laçın-Xankəndi yolu bağlı deyil.

Deputatın sözlərinə görə, əsas odur ki, ərazimizə keçən silah-sursatın, minaların, eyni zamanda qanunsuz hərbi birləşmələrin qarşısı alınıb: "BMT tərəfindən tanınmış ərazilərimizdə sərhəd-keçid məntəqəsini qurmuşuq. Ona görə Fransa XİN rəhbərinin verdiyi bəyanatın heç bir məntiqi yoxdur. Azərbaycan daxili və xarici siyasətini özü bildiyi kimi qurur".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransanın riyakar siyasəti

**Vasitəçi kimi onilliklər boyu Hayastan-Azərbaycan münaqişəsinin həlli istiqamətində heç bir əməli addım atmayan, əksinə, bu vəziyyətin əbədiyyətədək sürməsində maraqlı olan müstəmləkəçi Fransa riyakar siyasətini davam etdirir.**

Vətən müharibəsindən ötən müddət ərzində iki ölkə arasında normallaşmaya, sülh əldə edilməsinə məkrli yollarla əngəl olmağa çalışan haypərəst Fransa Azərbaycana qarşı "bəyanat" adı altında ard-arda kağız parçaları qəbul edir, böhtan xarakterli ittihamlar səsləndirir. Hayastan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasına mane olmaq üçün min bir fitnə-fəsad törədir. Müstəmləkəçi ölkə aprelin sonlarında ikiüzlü siyasətini növbəti dəfə dünyanın gözü qarşısında nümayiş etdirdi.

Belə ki, aprelin 28-də Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnan Hayastanın xarici işlər naziri Ararat Mirzoyanla birgə mətbuat konfransında Azərbaycana qarşı əsassız iddialar səsləndirərək bununla da bir daha Faransanın ölkəmizlə bağlı qərəzli, riyakar siyasətini açıq şəkildə göstərdi.

### Hayastanın müstəmləkəçi "təəssübkeşi"

Ketrin Kolonnanın Azərbaycanı Ermənistanın ərazilərinə müdaxilədə ittiham edən əsassız və gülünc iddiaları isə ölkəmiz tərəfindən qətiyyətlə rədd edildi. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da deyilir ki, Fransa naziri tərəfindən səslənmiş əsassız iddialar qəbuledilməzdir: "Azərbaycanı Ermənistanın ərazilərinə müdaxilədə ittiham edən əsassız iddiaları səsləndirənlərə 30 il ərzində işğal və etnik təmizləmə siyasətini aparan tərəfin Ermənistan olduğunu xatırlatmaq istərdik. Əfsuslar olsun ki, özünü münaqişənin həll olunması istiqamətində "səy" göstərən tərəf kimi göstərən Fransa 30 il ərzində bir dəfə belə olsun Ermənistanı apardığı qeyri-qanuni işğal siyasətinə görə qınamayıb".

Hayastan-Azərbaycan münaqişəsində vasitəçi olaraq 25 il müddətində torpaqlarımızın Ermənistan tərəfindən işğalına, yüzminlərlə vətəndaşımızın yurdundan didərgin salınmasına, insanlarımızın soyqırımlarına məruz qalmasına, işğal müddətində torpaqlarımızda törədilən erməni vandallığına laqeyd, biganə münasibət bəsləyən Fransa indi vicdansızlıqla "erməni təəssübkeşliyi" edir.

Baxmayaraq ki, Ermənistan tərəfi indiyə qədər hələ də Azərbaycan ərazisindən silahlı qüvvələrini tam olaraq çıxarmayıb, Azərbaycanın 8 kəndini işğaldan azad etməyib və hərbi-siyasi təxribatları davam etdirir.

Özünün dünyanın ən demokratik ölkələrindən olduğunu hesab edən Fransa ölkəmizə qarşı sərgilədiyi bu qərəzli əməllərlə faktiki olaraq hələ də müstəmləkəçilik ab-havasında olduğunu, digər ölkələrin işlərinə, yumşaq ifadə etsək, burnunu soxmaq istəyini ortaya qoyur.

O da başqa faktdır ki, öz tarixi soyqırımları üzərində qurulan, əli bir milyon yarım əlcəzairlinin qanına batan müstəmləkəçi Fransanın multikulturalizmin, dini tolerantlığın beşiyi olan Azərbaycanı hansısa əsassız iddialarla ittiham etməsi gülünc və həyasızlıqdır.

### Axı Fransanın dərdi nədir?

Xatırladaq ki, beynəlxalq hüquq və normalara uyğun olaraq, aprelin 23-də Azərbaycan Hayastanla şərti sərhəddə, Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi qurub. Artıq Azərbaycan tərəfindən Laçın yolunda hərəkətin şəffaflığı, o cümlədən hər iki tərəfə vətəndaşların və nəqliyyatın tam təhlükəsiz şəkildə hərəkəti təmin edilir.

Lakin ölkəmizin beynəlxalq qanunlar çərçivəsində Laçın yolunda nəzarət-buraxılış məntəqəsini yaratması təcavüzkar Hayastan və ona havadarlıq edən Fransaya bərk toxunub, yuxularını ərşə çəkib. Buna görə "bacılar" yaman hay-şüvən qoparıblar və elə aprelin 28-də Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanın Hayastanın xarici işlər naziri Ararat Mirzoyanla birgə mətbuat konfransında Azərbaycana qarşı əsassız iddialar səsləndirməsi də buna misaldır.

Aprelin 27-də Prezident İlham Əliyevin Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə görüş zamanı Fransa nazirinin diqqətinə çatdırdığı kimi, Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir. Bu baxımdan Ketrin Kolonnanın Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı İrəvanda səsləndirdiyi iddialar ölkəmizin daxili işinə qarışmaq kimi qiymətləndirilir. Eyni zamanda bu yolda sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bir məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qələmə verilməsi də tamamilə yanlış və qəbuledilməzdir.

Azərbaycan bu yolda sərhəd nəzarət-buraxılış məntəqəsi qurmaqla Hayastanın və separatçıların Laçın yolundan ölkəmizə qarşı təxribatlar məqsədilə istifadəsinə son qoydu. Azərbaycan tərəfindən Laçın yolunda hərəkətin şəffaflığı, o cümlədən hər iki tərəfə vətəndaşların və nəqliyyatın tam təhlükəsiz şəkildə hərəkəti təmin edildi və eyni zamanda bununla həm də Xankəndidə yaşayan ermənəsilli vətəndaşlarımızın separatçılar tərəfindən sui-istifadəsinə nöqtə qoyuldu. Bu sadalananlar isə birbaşa bölgədə sülhə gətirib çıxaracaq mühüm addımlardır.

O zaman bir sual ortaya çıxır ki, bəs Fransanı qane etməyən nədir?

Cavab isə çox sadədir: müstəmləkəçi ölkəni Cənubi Qafqazda sabitlik, əmin-amanlıq və dayanıqlı sülhün olması heç cür qane etmir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ermənistan düz yol tutmasa, növbəti məğlubiyyətlə üzləşəcək

**Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması 44 günlük Vətən mühaibəsində qazandığımız zəfərin təntənəsidir. 10 noyabr Bəyanatını imzalamaqla dövlətimizin başçısı bütün dünyaya göstərdi ki, Azərbaycan müharibə istəməyən tərəfdir, problemin hər zaman sülh yolu ilə həllinin tərəfdarı olub.**

44 günlük müharibədə Hayastan məğlub olaraq aman dilədi. Aman diləyənə fürsət vermək böyüklükdür, bunu Azərbaycan etdi. Amma sonra Hayastanın hərbi-siyasi rəhbərliyi nə etdi? Qapı-qapı gəzib, müharibənin dayanması üçün yalvaran Paşinyan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən imtina etdi. Atəşkəsin dayanmasını fürsət bilib revanş götürmək niyyətinə düşdü. Yalvarıb humanitar məqsədlər üçün keçid istədikləri Laçın yolundan hərbi məqsədlər üçün istifadə etdi. Xoş niyyətlə verdiyimiz yoldan istifadə edən düşmən yurdumuza yeni bəlalar gətirməkdən bir an belə çəkinmədi.

Regionda sabitliyi, sülhü istəməyən müxtəlif dövlətlərin emissarları torpaqlarımıza ayaq açıb yenidən müharibə alovunu körüklədilər. Hansı iyrənc əmələ əl atmadılar ki? Göz görə-görə sərvətlərimizi talayıb Hayastana daşınmasından tutmuş İran mollalarının erməni "qardaşları"na təlim keçmək üçün göndərdikləri diversantlara kimi hər cür yola getdilər. Erməni lobbisinin xoşuna gəlmək üçün cilddən-cildə girən Fransa prezidentliyinə namizədlər, Vardanyanlar Qarabağa gəldilər. Hayastan üçtərəfli Bəyanatın şərtlərinə əsasən, Qarabağda saxladığı qoşunlarını çıxarmaq əvəzinə bu yol ilə torpaqlarımıza basdırmaq üçün yeni minalar daşıdı. Yolun "əbədi olaraq" nəzarətsiz qalacağını, himayədarları vasitəsilə hər an Qarabağa silah-sursat keçirə biləcəyini düşünən Hayastan ordusu sərhədlərimizdə təxribatlar törədib silahlı toqquşma yaratmaqdan da çəkinmədi. Əslində, Hayastan rəhbərliyi anlamalıydı ki, Fərrux dağında, Sarıbabada, Qırxqızda başları "dəmir yumruq"la əziləndə onlara söz verib, amma arxalarında dayana bilməyənlərin yanına qaçmamalı, Azərbaycan Prezidentinin göstərdiyi düz yol ilə getməli idilər.

Haylar sərvətimizi talayanda, torpaqlarımıza silah-sursat daşıyanda, dünyanın müxtəlif yerlərindən Qarabağa muzdlu döyüşçülər gətirəndə bilməliydilər ki, Azərbaycan onların bu təxribatlarına dözməyib sərt tədbirlər görəcək.

Həmişə öz tədbirli siyasəti, uzaqgörənliyi ilə seçilən Azərbaycan Prezidenti sözünün sahibidir. Vaxtında qabaqlayıcı tədbir görəndir. Münhen Təhlükəsizlik Konfransında Hayastanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılmasının vacibliyini vurğuladı və bu fikir ABŞ və Aİ rəsmiləri tərəfindən normal qarşılandı.



Aparılan ardıcıl siyasətin, dəmir iradənin nəticəsi olaraq Azərbaycan öz torpaqlarına sahiblik edir. Artıq beynəlxalq hüquq normalarına uyğun olaraq Hayastanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradılıb. İndi torpaqlarımıza ayaq basan hər kəs üç dildə - Azərbaycan, ingilis, rus dillərində yazılmış "Diqqət! Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz" sözlərini oxumalı olur. Bu nəzarətlə üzləşən hər bir erməni, eləcə də Qarabağa hər hansı bir təbliğat aparmağa gələn əcnəbi biləcək ki, Azərbaycan dövlətinin ərazisinə daxil olur və əl-qolunu sallayıb istədiyini keçirə, qanundankənar hərəkətlərə yol verə bilməz.

Eyni zamanda bu nəzarət-buraxılış məntəqəsini yaratmaqla Azərbaycan indiyədək ölkəmizin ərazisinə müxtəlif dağ yolları ilə girişin, silah-sursat daşınmasının qarşısını birdəfəlik aldı. Necə deyərlər, bundan sonra haylar haradan fırlansalar, gəlib Laçın yolunda yaradılmış sərhəd nəzarət-buraxılış məntəqəsindən keçməli olacaqlar.

Dövlətimizin başçısı İlham Əliyev ölkəmizə səfərə gəlmiş Fransanın Avropa və xarici işlər naziri ilə görüşü zamanı bildirdi ki, "2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirib".

Azərbaycan öz hüquqi ərazisində, sərhədləri çərçivəsində nəzarət-buraxılış məntəqəsi yaratmaqla 31 illik nəzarətsizliyə, ermənilərin özbaşınalığına son qoydu. İndi müqəddəs zəfər bayrağımız Laçın yolunda, Həkəri körpüsünün üstündə, Azərbaycan ərazisindəki bütün yüksəkliklərdə qürurla dalğalanır. Kimlərsə bundan sonra nə sərvətimizi talaya bilər, nə burnunu ərazilərimizə qanunsuz soxa bilər. Əgər Ermənistan düz yol tutmasa, növbəti məğlubiyyətlə üzləşəcək.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*






# Gənclik






● Sağlam nəsil, sağlam gələcək



## Azərbaycanın gənc alimlərinə dəstək

**Yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclər ordusuna və insan kapitalına sahib olmaq hər bir dövlətin uğuru sayıla bilər. Bununla yanaşı, hər hansı bir xalqın etnik potensialı, güclü dövlətçilik ənənələri, siyasi qüdrəti onun yetişdirdiyi tarixi şəxsiyyətlərlə müəyyən edilir.**

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının ideoloqu, tarixin özünə çevrilən nəhəng şəxsiyyətdir. Ümummilli Liderin əsasını qoyduğu milli siyasi ənənə bu gün Azərbaycanın təkcə Qafqazda deyil, qlobal miqyasda artan nüfuzunda və milli iradəsində özünü əks etdirir. Sirr deyil ki, Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasının əsasını da məhz Heydər Əliyev qoymuşdur. 1995-ci ildən bu yana Azərbaycan gənclərinin forumunun keçirilməsi artıq ənənə halını almışdır. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində hələ dünyada Beynəlxaq Gənclər Günü elan edilməmişdən öncə, Azərbaycanda 1996-cı ildə "2 Fevral - Gənclər Günü"nün təsis edilməsi haqqında mühüm strateji qərarın verilməsi onun gəncliyə bəslədiyi böyük ümidin göstəricisi və dəyərin qiyməti idi.

Bu gün əminliklə deyə bilərik ki, ölkə Prezidenti İlham Əliyevin gənclər siyasətinin konsepsiyası öz sələfinin müasir təzahürüdür. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət proqramları çərçivəsində həyata keçirilən layihələr, görülən işlər irsi davam etdirilən fundamental gənclər siyasətinin mühüm prioritetlərindəndir.

Prezident İlham Əliyev gənclərlə görüşlərində onlara xüsusi münasibətinin olduğunu, hər zaman arxalandığını vurğulayıb. Səslənən bu fikirlərin əməli təzahürü kimi müxtəlif sahələrdə fəaliyyət göstərən kreativ-intellektual gənclərin elmi-ictimai fəaliyyətinin inkişafına xidmət edən 2007-ci ildə "Gənclər ili"nin elan olunması, 2011-ci ildə Gənclər Fondunun yaradılması, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı", 2018-ci ildə "Elm Gününün" təsis olunması və digər həyata keçirilən mühüm tədbirlər bu fəal təbəqənin rifahına xidmət edən, müasir inkişafı hədəfləyən mühüm dövlət dəstəyinin göstəricisidir.

Azərbaycan Milli Elmlər Akademiyasında elm və gənclərlə bağlı həyata keçirilən işlərdə dövlət siyasəti rəhbər tutularaq elmdə mobilliyi, gənclərin təşkilatlanmasını təmin etmək məqsədilə 2013-cü ildə bir sıra dövlət təşkilatlarının subyektlərinin iştirakı ilə baş tutmuş geniş iclasda AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının təsis edilməsi qərara alınmışdır. Bu, artıq onlarca təşkilatda minlərlə gənc alim və mütəxəssisin bir mərkəzdən koordinasiya olunması demək idi.



Gənc Alim və Mütəxəssislər Şurası tərəfindən elmi-ictimai fəaliyyətlə əlaqədar yerinə yetirilən multiprofilli layihələr istər əhatə dairəsi, istərsə də yaş qrupları baxımından olduqca genişdir. Bu da çox ciddi şəkildə təşkilatlanan, həmçinin Elmlər Akademiyasının formalaşan fundamental və müasir imicini yaşadan mobil gənclər birliyinin olması deməkdir. Şura tərəfindən tamamilə yeni mexanizmlər və fərqli formatlar əsasında gerçəkləşdirilən layihələrin əsas hədəflərindən biri ölkə üzrə elmin təbliği və populyarlaşdırılmasıdır. Ölkəmizdə elm, təhsil, media, sahibkarlıq və digər müvafiq təşkilatların subyektlərinin gənclərlə interaktiv qaydada müzakirəsinin təşkil edilməsi, dünyanın fərqli coğrafiyalarını təmsil edən gəncləri Bakıda, Gəncədə və digər regionlarımızda bir neçə dəfə bir araya gətirməklə onların qarşılıqlı elmi diskussiyaları üçün lazımi platformanın reallaşdırılması, regionlarda xüsusilə məktəbli qızların elmə təşviqi məqsədilə seminar və görüşlərin təşkili, gənclərin milli-mənəvi və idman ruhunda tərbiyələndirilməsi məqsədilə yeni ənənələrin formalaşdırılması şuranın fəaliyyətində hər zaman prioritet istiqamətlər kimi yer almaqdadır.

Hazırda gənclər şurasının fəaliyyət dairəsində aktiv iştirakı ilə seçilən gənclərin innovativ ideyalar və birgə elmi-yaradıcı hədəflər uğrunda komandalaşması onların yeni elmi layihələrdə bir araya gəlməsinə zəmin yaradır. Bu da gənc alimlərin multi və interdissiplinar tədqiqatlarda birgə əməkdaşlıq göstərməsinə, müxtəlif fondlara birgə layihələrin təqdim edilməsinə, həmçinin müasir elmin tələbləri və elmimetriyanın ölçüləri kontekstində "Web of Science" və "Scopus" platformalarında indeksləşən jurnallarda çap etdirdikləri məqalələrin gündən-günə artmasına geniş imkan verir. Əlbəttə, belə bir fəaliyyət nə qədər böyük zəhmətin bəhrəsidirsə, bir o qədər də verilən dəstəyin nəticəsidir.

Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli sərəncamı ilə elmi idarəetmədə artıq yeni reallıqlar yaranmağa başlayıb. Yeni dövrdə elmi təşkilatlanma və inkişafda baş verəcəklər dolayısı ilə gənclər siyasətinin də müddətli deyil, onun dövriliyinin, eləcə də davamlılığının təminatına və qarantına çevrilməkdədir.

Qəbul edilən proqram və strategiyanın əhatə qrupları, məqsədləri və bu yöndə dövlətimizin başçısı tərəfindən edilən çağırışlar elmi gəncliyin inkişafı üçün yeni hədəflər formalaşdırır. Düşünürəm ki, çağdaş dünyada baş verən qloballaşma, elmi-texniki tərəqqi ilə bərabər, inkişaf üçün diaspora fəaliyyətini genişləndirmək, ölkəmizin gənc alim və tədqiqatçılarının beynəlxalq elmi tədbirlərə mütəmadi qatılması, xaricdə təcrübəkeçmə imkanlarının artırılması, xarici həmkarları ilə işgüzar əlaqələrin çoxaldılması və möhkəmləndirilməsi istiqamətində işlər daha da artırılsa, çox yaxşı olardı. Ölkəmizdə gənc tədqiqatçıların multi və interdissiplinar elmi fəaliyyətlərini təşkilatlandırmaq məqsədilə tədqiqat mərkəzlərinin yaradılması, onların yenilikçi ideyalarına dəstək və maliyyələşdirilmə nəticəsində ərsəyə gələcək elmi işlər beynəlxalq elmə inteqrasiyanı sürətləndirməkdə əsas alətlərdən sayıla bilər.

Bununla yanaşı, türk dünyası ölkələrinin beynəlxalq aləmdə artan nüfuzu və qarşılıqlı əlaqələri fonunda onların gənc alimlərinin də elmi əlaqələrinin yaradılması, çoxaldılması türk dünyası elminin regionda və dünyada fundamental inkişafına təkan verə bilər.

***Elmir BABAYEV,***
***AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, kimya üzrə fəlsəfə doktoru***

● Şəhidlər ölməz, Vətən bölünməz

## "Döyüşdən necə qayıtmağıma baxmayaraq, gözlərimdən öpərsən"

**Xəyal dünyaya gələndə ermənilər Qarabağı işğal etmişdilər. Vətənimizin bir hissəsi yağı tapdağı altında qalıb əzildikcə torpaq uğrunda canlarını fəda edib Vətən göylərində ulduzlara qarısıb sayrışan şəhid ruhları yurd, torpaq deyib fəryad edirdilər. Yağış əvəzinə göylərə çəkilmiş nakam taleli insanların gözyaşı tökülürdü. Sinəmizdə Qarabağ boyda dərd böyüdürdük...**



Lək kəndinin qurtaracağı, Göyçay çayına çathaçatda yolun kənarındakı lövhəyə Xəyalın portreti vurulub. Bayraqlar asılmış yolu istiqamət götürüb irəliləyirik. Qarşıdakı evin küçə qapısı açıq, həyətdə qara paltarlı bir qadın dayanıb sakit-sakit göylərə baxırdı. Elə bil Tanrı ilə söhbət edir, balasını geri istəyirdi. Bizi görüb Tanrıya uzanan əllərini ümidsiz bir şəkildə aşağı salır. Dağ boyda dərdi çiyinlərinə yük etmiş ana dərindən bir ah çəkir. Sonra ömürgün yoldaşını səsləyir: "Rafiq, Xəyalın qonaqları gəlib, gəl qarşıla". Dərddən beli bükülüb, qaməti əyilib, iri qara gözləri çuxura düşmüş şəhid atası bizi mehribanlıqla qarşılayıb evə dəvət edir.

Onun yataq otağındayıq. Buraya Xəyalın ev-muzeyi də demək olar. Fotoşəkillərdən nur üzlü Xəyalın baxışlarına sakit baxmaq olmur. Gözyaşında boğulan ananın, dərddən əyilib ikiqat olmuş atanın ahu-fəğanı ürəyimizə od salır.

Atası Rafiq ciyərparəsindən söz açır: "Xəyalın elə bil öz missiyası var idi. O, vətənpərvər kimi gəlmişdi bu dünyaya. Gəldi, yaşadı, qısa zamanda öz vəzifəzini icra edib getdi.

Xəyal 2016-cı ilin oktyabrında həqiqi hərbi xidmətə çağırıldı. Əsgərliyini Ağdam rayonunda yerləşən hərbi hissədə çəkmişdi. Qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri arasında çox böyük hörmət qazanmışdı. Təlimlərdə fərqləndiyinə, komandanlığın tapşırıqlarını yaxşı yerinə yetirdiyinə görə hərbi hissənin komandanlığı adından dəfələrlə evimizə təşəkkürnamələr gəlmişdi. Özüm Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Xəyal mənim edə bilmədiklərimi etdi.

2020-ci ilin yayında gedib könüllü olaraq hərbi xidmətə yazılmışdı. Sentyabrın 1-də onu nişanlamaq fikrimiz vardı. Elə bil müharibənin başlayacağını, şəhid olacağını hiss etmişdi. Nədənsə sentyabrda nişan aparmağa qoymadı. "Ana, bir qədər gözləyək" dedi. Müharibə başlayanda Xəyal çox böyük həvəslə döyüşlərə qatıldı. Dedim, hara getdiyini bilirsən? Dedi ki, narahat olma, mən hər şeyə hazıram. Qalib Ordunun şəhid əsgəri kimi bayrağa bükülü çiyinlərdə gələcəyəm.

Xəyal sentyabrın 29-da axşama yaxın evə gəldi, döyüşlərdə iştirak edəcəyini dedi. Səhər tezdən yola çıxdı. Məni qucaqlayıb dedi ki, ağlama. Sən ağlayanda əllərim boşalır, qollarım gücdən düşür. Müharibədən qayıdanda necə gəlsəm, gözlərimdən öpərsən. Onda mən rahat olaram.

Noyabrın 2-də Tuğ kəndindən zəng vurmuşdu. Dedi ki, "Ana, Allahın köməyi ilə Xocalının qisasını aldıq. İndi də Şuşaya gedirik. İnşallah, oradan da sənə şad xəbər verəcəyəm".

Xəyal Şuşanın azadlığı uğrunda həlak olub. Füzulidən Şuşaya qədər uzaq bir məsafə qət edən döyüşçülərdən olub. Qəhrəmanlıq göstərib, tarix yazıb.

Döyüş yoldaşı Hüseyin Əliyevin xatirələri:

- Füzulidə döyüşlər zamanı başlanan tanışlıq sonradan dostluğa, qardaşlığa çevrilmişdi. Xəyalla Füzulidən Şuşaya kimi birgə döyüş yolu keçmişik. Çox dəqiq atıcı idi.

Müharibənin sonuna lap az qalmışdı. XTQ-nin komandiri gəlib Daşaltı kəndi ərazisində üç yol deyilən ərazidə düşmənin təchizat, təminat yolunu bağlamaq üçün könüllü qüvvə lazım olduğunu deyəndə bizim qrup önə çıxdı. Bu da 99 faiz ölümlə razılaşmaq demək idi. Biz könüllü olaraq həmin əraziyə döyüşə yollandıq. Noyabrın 4-də axşam saaat 8 olardı. Hava çox qaranlıq, dumanlı, çənli idi. Döyüş tapşırığını yerinə yetirmək üçün Daşaltıya doğru hərəkətdə idik. Qəflətən ard-arda partlayışlar oldu. Sən demə, minalanmış ərazidən keçirikmiş. Bunlar tank əleyhinə minalar idi. Biri mənim yaxınlığımda partlamışdı. Aldığım zərbədən gözlərim tutuldu. Hər tərəf zülmətə bürünmüşdü. Şamo adlı döyüş yoldaşımız qıçından ağır yaralanmışdı. Ülvi adlı başqa bir döyüş yoldaşımız da qolundan. Bu partlayışda çox igidliklər göstərmiş Vüsal Şükürov, Qalası Kərimli, Qalib Nuruzadə, Atakişiyev familiyalı bir döyüşçü qardaşımız və Xəyalımız şəhid oldular. Sıramız seyrəlmişdi. Düşmənin təchizat yolu bağlanmalı idi. Nəyin bahasına olursa-olsun, əmr yerinə yetirilməliydi. Biz irəliləyirdik. Zəfərə doğru, o mübarək günə doğru gedirdik. Bilirdik ki, o gün çox yaxındadır. Çox təəssüf ki, Xəyal o günü görmədən getdi.

Vətən müaribəsində göstərdiyi qəhrəmanlığa görə Cəbrayılov Xəyal Rafiq oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" medalları ilə təltif olunub.

Xəyalın arzusu Şuşanı azad görmək idi. Hələ uşaqlıqdan Şuşaya zəfər bayrağını sancmaq arzusu ilə yaşayırdı Xəyal. Bəlkə uşaq vaxtı "Ana, bax gör böyümüşəm" deyəndə tez böyüyüb düşmən üstə getməyi niyyət edirdi. Uşaqlıqda xəyalən getdiyi yolu qəhrəman ordumuzun qəhrəman əsgəri Xəyal Cəbrayılov müqəddəs 44 günün 40 günündə qət etmişdi. Düşmənin torpaqlarımıza basdırdığı özü kimi namərd mina noyabrın 4-ü gecəsi onun cismən Şuşaya getməsinə mane oldu. Şuşanın bir addımlığında Xəyalı dayandırdı.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

● Xəbər

## BDU-nun tələbələri "TEKNOFEST-2023" festivalında




**Bakı Dövlət Universitetinin (BDU) tələbələrdən ibarət 4 komandası Türkiyədə keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalının final mərhələsində müəllifi olduqları 6 layihənin təqdimatını ediblər.**

Festivalda BDU-nun "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)", "REB-Pack (dörd fərqli təbii şərait və qaynaqdan - günəş, külək, alov və su axını - elektrik enerjisi əldə etməyə imkan verən bel çantası)", "CMC-Vessel (ferromaqnit və fotokatalitik maddələrin istifadəsi əsasında dəniz suyunu avtomatik olaraq çirkləndiricilərdən təmizləyə biləcək robot)", "Humantek" komandası "Ağıllı damcı sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)", "G-21" komandası "Zərərvericilərə qarşı dronlarla mübarizə", "FALCON TECH" komandası isə "Qapalı məkanlarda yanğınları ilkin mərhələdə zərərsizləşdirən ağıllı robotun yaradılması" adlı layihələrlə çıxış edirlər.

● Tribuna

## Modernləşmə prosesində elmin rolu artır

**Ulu Öndər 2002-ci ildə Bilik Günündə oxuduğum Suraxanı rayonundakı 275 saylı orta məktəbə gəlmişdi. Bizimlə səmimi söhbəti zamanı dediyi "Gələcəyimiz siz gənclərin əllərindədir", "Siz bizim gələcəyimizsiniz" cümlələri heç vaxt yadımdan çıxmayıb və həyat kredom olub.**



Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Onların milli ruhda yetişdirilməsi hər bir ölkə üçün başlıca məsələdir. Son illər ölkəmizdə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında onun əhəmiyyətinin artırılması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində qəbul edilmiş mühüm qərarlardan biri də dövlət başçısının Azərbaycan Respublikasında "Elm Günü"nün təsis edilməsi haqqında 9 aprel 2018-ci il tarixli sərəncamı oldu. Builki "Elm Günü"ndə "İlin gənc alimi" diplomuna layiq görüldüm. Dövlətin elmlə məşğul olanlara diqqət və qayğısının rəmzi ifadəsi olan peşə bayramının təsis olunması gənclərimizə xüsusi stimul verdi.

Ölkəmizdə gənclərə göstərilən qayğını öz timsalımda bildirmək istəyirəm. Pandemiya səbəbindən ölkəmizdə Dissertasiya şuraları bir müddət fəaliyyət göstərməsə belə mən 28 yaşımda fizika üzrə fəlsəfə doktoru elmi dərəcəsi aldım. Hazırda tədqiqat işləri aparmaqla bərabər, Azərbaycan-Fransız Universitetində (UFAZ-ın) ingilis dilində fizika fənnindən mühazirə söyləyir, məşğələ dərslərini aparıram.

Bu ilin mart ayında mən tədqiqat proqramı çərçivəsində Azərbaycan-Fransız Universitetinin dəstəyi ilə Fransanın Strasburq Universitetində (Unistra) ezamiyyətdə oldum. Unistra professoru, Philipp Turekin rəhbərlik etdiyi POMAM (Proprietes Optiques et Magnetiques des Architectures Moleculaires) laboratoriyasında və Strasburqun Materiallar Fizikası və Kimyası İnstitutunda (IPCMS) tədqiqatlar apardım. Bundan əlavə, orada olan müxtəlif cihazların iş prinsipləri haqqında məlumatlar əldə etdim. Strasburq Universitetində EPR cihazı ilə tanış oldum, onun işləmə prinsipini öyrəndim və aşağı ölçülü sistemlərin bəzi xassələrini araşdırdım. Nümunəyə göndərilən elektromaqnit dalğalarının temperaturun dəyişməsindən necə təsirləndiyini müşahidə etdim və bütün məlumatları Ksenon proqramı ilə hesablayaraq mühüm nəticələr əldə etdim. Aldığım nəticələri həmin universitetin professorları Vileno Bertrand və Tureklə müzakirə etdim.

Biz gənclər cəmiyyətin ən dinamik zümrəsi kimi ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edirik. Bütün bunların hamısı Prezident İlham Əliyevin gənclərə olan diqqətinin və qayğısının nəticəsidir. İndi dövlət qurumlarında rəhbərliklər daha çox gənclərə həvalə edilir. Son dövrlərdə elm və texnikanın inkişafının sürətlə irəliləməsinin nəticəsinin biz İkinci Qarabağ müharibəsi zamanı şahidi olduq. Gənclərimiz Vətən müharibəsində şanlı qələbələri ilə xalqımıza zəfər bəxş etdilər. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük müharibədə şanlı qələbəsi göstərdi ki, indiki müasir dövrün müharibədəki qələbələri intellektual əməyin nəticələridir. Odur ki, dəqiq elmlərlə məşğul olan gənc alimlər ölkəmizin hərbi sənaye potensialının yüksəlməsi üçün var gücləri ilə çalışır, müasir dövrün ən zəruri mövzuları üzrə tədqiqat işləri aparırlar.

Bu gün Azərbaycanın müasirləşməsi, modernləşməsi istiqamətində uğurlu siyasət həyata keçirilir. Bu baxımdan modernləşmə prosesində elmin rolu xüsusi əhəmiyyət kəsb edir.

***Behbud İBRAHİMOV,***
***Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru***

● "Gələcək mən"

## Gənclərin düzgün peşə və ixtisas seçiminə diqqət göstərilir

**"İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə gənclərin düzgün peşə və ixtisas seçiminə dəstək məqsədilə "Gələcək mən" adlı konfrans keçirilib.**

Tədbirdə Dövlət İmtahan Mərkəzi, Azərbaycan Dillər Universiteti, Dövlət Məşğulluq Agentliyi, Vəkillər Kollegiyası və bir sıra özəl şirkətlərin nümayəndələri, habelə 200-ə yaxın gənc iştirak edib.

Dövlət İmtahan Mərkəzinin Psixoloji qiymətləndirmə və diaqnostika şöbəsinin əməkdaşı Sevinc Məmmədova konfransda gənclərin öz istəklərinin müəyyənləşdirilməsi, ixtisas seçimi zamanı atılan səhv addımlar və onların qarşısının alınması yolları mövzusunda təqdimatla çıxış edib. Həmçinin ixtisas seçimi zamanı diqqət yetirilməli olan məqamlar haqqında gənclərə məlumat verilib.

İRƏLİ
İCTİMAİ BİRLİYİ

# İŞİMİZ, GÜZƏRANIMIZ

**Hazırda bütün dünyada bərpaolunan enerjiyə üstünlük verilməsi ənənəvi enerjinin əhəmiyyətini heç də azaltmır. O cümlədən ölkəmizdə uğurla "yaşıl enerji" layihələrinin həyata keçirilməsinə baxmayaraq, ayrı-ayrı bölgələrdə yeni elektrik enerjisi gücləri yaradılır. Yeni elektrik stansiyaları və yarımstansiyaları tikilib istifadəyə verilir.**



## Getdikcə daha gur işıq saçan Azərbaycan

Prezident İlham Əliyevin bu il aprelin 18-də açılışını etdiyi "Azərişıq" ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzi deyilənlərə aydın misaldır. Hələ 44 günlük Vətən müharibəsi qələbə ilə başa çatandan az sonra dövlət başçısı bəyan etmişdi ki, əsas diqqət işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına yönəldilsə də, digər bölgələr də unudulmayacaq. Sosial-iqtisadi infrastruktur layihələri ölkənin hər tərəfində davam etdiriləcək. Bu, enerji obyektlərinin işə salınmasında da özünü göstərdi.

Xatırladaq ki, son illər ərzində Azərbaycanda bütövlükdə elektroenergetika sahəsi sürətlə inkişaf etmişdir. Son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa edilmişdir və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Hazırda ümumi generasiya gücümüz 7200 meqavatdır. Bunun 3400 meqavatı son iki onillikdə yaradılmışdır. Dövlətin bu məsələni prioritetlərdən biri kimi seçməsi ölkənin iqtisadi gücünə təkan vermişdir, enerji təhlükəsizliyimizi təmin etmişdir.

İşğaldan azad edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinə də ilk növbədə elektroenergetika sahəsindən başlanmışdır. Həmin ərazilərdə artıq 10-dan çox yarımstansiya, 10-dan çox su-elektrik stansiyası inşa edilmişdir. 50 meqavatdan çox generasiya gücü yaradılmışdır. Bütün stansiyalar ümumi şəbəkəyə qoşulmuşdur. Cari ilin sonuna qədər bu rəqəm 200 meqavata çatacaq. Yəni ancaq azad edilmiş torpaqlarda cəmi 3 il ərzində 200 meqavatlıq enerji gücü yaradılmış olacaq. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, həmin bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradılsın.

Bunlarla yanaşı, ölkənin bir sıra digər regionlarında da həmin istiqamətdə iş aparılır. Bu il fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimi keçirildi. Bu enerji nəhəngi Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı sərəncama uyğun olaraq yaradılır. Təməlqoyma mərasimində dövlət başçısı obyektin əhəmiyyətini vurğulayaraq demişdir: "İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır".

Beləliklə, yeni stansiyanın tikilməsi ölkənin enerji dayanıqlılığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, yüksələn enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Stansiya eləcə də bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılmasına, ətraf mühitin qorunmasına, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsinə, iqlim dəyişiklikləri ilə bağlı kataklizmlərin qarşısının alınmasına dəstək verəcək. Stansiyanın Mingəçevirdə qurulması bu şəhərin əlavə iş yerlərinin yaradılması ilə sosial-iqtisadi inkişafında da mühüm rol oynayacaq.

Yeni elektrik stansiyasının 2025-ci ildə istismara verilməsi nəzərdə tutulur və tikinti prosesini ixtisaslaşmış yerli şirkət həyata keçirir. 1280 meqavat gücündə elektrik stansiyası müstəqillik dövründə tikiləcək ən böyük istilik-elektrik stansiyası olacaq.

Bu günlərdə Salyan şəhərində yaradılan Rəqəmsal İdarəetmə Mərkəzi ölkəmizdə elektroenergetikanın inkişafı istiqamətində işlərin davamlı olduğunun daha bir təsdiqidir. Bu mərkəz dispetçer idarəetmə sistemi ilə aşağı gərginlikli şəbəkələr tərəfindən elektrik enerjisinin son istehlakçıyadək çatdırılmasını nəzarətdə saxlayır.

Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malikdir. Gələcəkdə belə rəqəmsal idarəetmə mərkəzləri vasitəsilə bərpaolunan enerji mənbələrinin iş rejimlərinin izlənməsi də nəzərdə tutulur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

**◆ Birinci rübdə**

## 6,3 mindən çox şəxsə reabilitasiya xidməti göstərilib

### 448 imtiyazlı şəxs isə sanatoriya-kurort yollayışı ilə təmin olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən bu ilin ilk rübündə 6 335 şəxs sosial və peşə-əmək reabilitasiyası xidməti ilə təmin olunub.**

Onlardan 2176 şəxsə agentliyin sosial xidmət müəssisələrində xidmət göstərilib. Həmin şəxslərdən də əlilliyi olan 181 gənc Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində müxtəlif peşələr üzrə hazırlıq kurslarına cəlb olunub.

Son 3 ayda tənha ahıl və əlilliyi olan 4 159 şəxsə isə evlərində (səyyar) sosial-məişət xidməti göstərilib. Bu dövrdə 448 imtiyazlı şəxs agentlik tərəfindən sanatoriya-kurort yollayışı ilə təmin olunub.

## Dövlət büdcəsinin gəlirləri artıb

**2023-cü ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri əhəmiyyətli dərəcədə artıb. Bu barədə Trend-ə Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən məlumat verilib.**

Məlumata görə, Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə daxilolmalar 2,097 milyard manat və ya 74,8 faiz artaraq 4,899 milyard manata çatıb. Maliyyə Nazirliyinin məlumatında daha sonra bildirilib ki, Dövlət Gömrük Komitəsinin xətti ilə artım 313 milyon manat (25,4 faiz), Əmlak Məsələləri Dövlət Xidmətinin xətti ilə 1,5 milyon manat (23,4 faiz) olub. Bundan başqa, dövlət büdcəsinin büdcə təşkilatlarının ödənişli xidmətlərindən gəlirləri 33,3 milyon manat (20,2 faiz) artıb. Digər gəlirlər üzrə artım isə 16,3 milyon manat (20,2 faiz) olub. Dövlət Neft Fondundan dövlət büdcəsinə 1,181 milyard manat daxil olub.

Qeyd edək ki, 2023-cü ilin birinci rübünün yekunlarına görə, dövlət büdcəsinin profisiti 1,723 milyard manat təşkil edib. Dövlət büdcəsinin gəlirləri 8,29 milyard, xərcləri isə 6,567 milyard manat olub. 2023-cü ilin yanvar-mart aylarında dövlət büdcəsinin qeyri-neft sektorundan gəlirləri 4,43 milyard manat və ya dövlət büdcəsinin ümumi gəlirlərinin 53,4 faizinə çatıb. Dövlət büdcəsinin neft sektoru üzrə gəlirləri isə 3,860 milyard manat olub.

## Göygöldə yeni layihənin icrasına başlanmışdır

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrant müsabiqəsinin qalibi olmuş "Əlillərin Beynəlxalq Əməkdaşlıq Uğrunda" İctimai Birliyi Göygöl rayonunda "Vətən müharibəsində iştirak edən qazilərə sosial psixoloji dəstək tədbirlərinin təşkili" adlı layihənin icrasına başlamışdır.**



Bu münasibətlə Göygöl rayonunda 20 nəfər Qarabağ müharibəsi qazilərinin iştirakı ilə "dəyirmi masa" keçirilmişdir. Tədbirdə müxtəlif dövlət qurumlarının əməkdaşları, Göygöl Rayon İcra Hakimiyyətinin və qeyri-hökumət təşkilatlarının nümayəndələri, psixoloqlar, tibb işçiləri iştirak etmişlər.

Layihənin rəhbəri, "Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda" İctimai Birliyinin sədri Firuzə Babayeva çıxış edərək layihənin məqsəd və vəzifələrindən danışmış, Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülən sosial siyasətin Azərbaycan modelinin mahiyyətini və Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin prioritetlərini diqqətə çatdırmışdır. Sonra rayon ərazisində qazilərə verilən dəstək, bu sahədə görülməsi vacib olan işlər, problemlər və onların həlli yolları müzakirə edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## ABŞ, Koreya, Almaniya, Avstraliya...

### Azərbaycandan qeyri-neft məhsulları idxal edən ölkələrin coğrafiyası bütün qitələri əhatə edir

**Ölkələrin inkişaf dinamikasını müəyyən edən parametrlərdən biri də ticarət dövriyyəsidir. Bu zaman ixracın idxaldan üstün olması əsas müsbət göstərici sayılır. Çox sadə bir səbəbdən - ixracın çox, idxalın az olması ölkənin özünütəminetmə imkanının yüksək olduğunu göstərir.**

Azərbaycanda son illər icra edilən iqtisadi islahatlar sayəsində bir çox qeyri-neft məhsulu üzrə daxili tələbat yerli istehsal hesabına ödənilir ki, bu da idxalın tədricən azalmasına imkan yaradır. Dövlət Statistika Komitəsinin yanvar-fevral ayları üzrə açıqladığı rəqəmlərə görə, bu dövrdə ölkəmizin hüquqi və fiziki şəxsləri dünyanın 155 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişlər. 84 ölkəyə məhsul ixrac, 149 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-fevral aylarında xarici ticarət dövriyyəsinin dəyəri 8 milyard 370,7 milyon, o cümlədən ixracın dəyəri 5 milyard 719,7 milyon, idxalın dəyəri 2 milyard 651 milyon dollara çatmış və nəticədə 3 milyard 68,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. Ötən ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 6,7, real ifadədə 4,5, o cümlədən idxal 10,9, ixrac 2,4 faiz artmışdır.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, eləcə də meyvə-tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı üstün olmuşdur. İdxalda isə maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, mineral məhsulların, kimya sənayesi məhsullarının, nəqliyyat vasitələrinin, az qiymətli metallar və ondan hazırlanan məmulatların, bitki mənşəli məhsulların, hazır ərzaq məhsullarının, içkilər və tütün məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil etmişdir.

Müsbət haldır ki qeyri-neft-qaz sektorunda məhsul istehsalının çəkisi və çeşidi ildən-ilə artır. Bunun nəticəsidir ki, son illər həmin məhsullar üzrə ixracın dəyəri və coğrafiyası da genişlənir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı məlumata görə, təkcə cari ilin mart ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 17,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunmuşdur. Məlumatda o da bildirilir ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə mart ayı ərzində 146 müraciət daxil olub və onlara 276 sertifikat təqdim edilib. Ay ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq ulyuku, kərə yağı, pendir, qənnadı məmulatları, limonad, manqo, portağal, nar, alma və qarışıq şirələr, çaxır, narşərab, dondurma, iribuynuzlu heyvanların dondurulmuş mədəsi, təmizlənmiş duzlanmış qoyun bağırsağı, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü və dondurulmuş əti, gips daşı, pəncərə, heyvanlar üçün dərman vasitələri, tibbi zəli, su nasosları və hissələri, polad boru, polad kvadrat pəstah, polad armatur yaymasının ixracı həyata keçirilib. Həmin məhsullar arasında qiymətli metallar, polad boru, pambıq mahlıcı, süd məhsulları, meyvə şirələrinin ixracı daha çox olub. Məhsullarımız İsveçrə, ABŞ, Avstraliya, Almaniya, Gürcüstan, Belarus, Moldova, Honq Konq, İsrail, Koreya, Macarıstan, Rusiya, Sinqapur, Qazaxıstan, Özbəkistan, Türkiyə, Tacikistan və s. kimi ölkələrə satılıb.




***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Çörək haqqı



**Atalarımız "Çörək itirən çörək tapmaz" deyiblər. Səməd Vurğunun da bununla bağlı dillər əzbəri olan bir misrası var: "Çörək bol olarsa, basılmaz Vətən".**

Hər ikisi həqiqətdir. Çörək bizim and yerimiz, qüdrətimiz, qüvvətimizdir. Bizdə dostluq, qardaşlıq, kişilik çörəklə sınağa çəkilir. Yerə düşən çörəyi götürərək öpüb gözümüzün üstünə qoyuruq. Çörəyi həm də halallıq, bolluq rəmzi sayırıq.

Təbii ki, bütün bunlar çörəyə mənəvi münasibətimizdir. Amma çörək həm də əvəzolunmaz qida məhsuludur. Mayası sayılan buğdanın tərkibindəki karbohidratlar, zülalllar, vitaminlər, minerallar insan orqanizmi üçün ən vacib maddələrdir.

Amma gəlin görək bu nadir nemətin qədrini qədərincə bilirikmi? Yaxud çörəyə dildə verdiyimiz dəyər əməldə təsdiqini tapırmı? Təəssüf ki, bu suallara birmənalı cavab verə bilmirik.

Azərbaycanda istənilən qədər zörək zavodu və sexləri var. Həmin zavodlar və sexlərdə bişirilən çörəyin çeşidləri də az deyil. İlk baxışda bu, yaxşıdır, yəni seçim var. Amma bu seçim imkanı heç də hər zaman keyfiyyətlə müşayiət olunmur. Yumşaq desək, cürbəcür adlarla satışa çıxarılan çörəklərin dadı-duzu istehlakçıları heç də həmişə qane etmir. Hələ onu demirik ki, standartlara uyğun gəlməyən çörəklərin çoxu qida kimi sağlamlığımıza ziyan vurur. Halbuki süfrəmizin dəyişməz neməti olan çörək gündəlik enerji tələbatımızın 44 faizini ödəyir.

Söz ki keyfiyyətdən düşdü, bir neçə məsələyə diqqət çəkmək istərdik. Eşitdiyimizə görə, bu sahədə çalışan bəzi sahibkarlar satılmamış çörəkləri bəzən təkrar emal edib bişirərək dükanlara göndərirlər. Elə "qara" çörəklərə rəng qatılması da təzə söhbət deyil. Tibb mütəxəssisləri isə deyirlər ki, çörəyin istehsalında istifadə edilən bir çox qeyri-təbii qatqılar müxtəlif xəstəliklərə yol açır.

Bütün bunlara baxmayaraq, bir çox başqa xalqlardan fərqli olaraq bizim masamızda çörək əsas məhsul olmaqda davam edir. Deməli, qida xərclərimizdə də çörək və çörək məhsullarının payı az olmur. Elə isə çörəyin qiyməti barədə, həm də müqayisəli formada.

Avropa İttifaqının Statistika Mərkəzinin son məlumatına görə, avrozonada çörəyin orta qiyməti 18 faiz bahalaşıb. Ancaq elə ölkələr var ki, inflyasiya çörəyin qiymətinə o qədər də ciddi təsir etməyib. Məsələn, Azərbaycandakı kimi. Ölkəmiz bu gün çörəyin ucuzluğuna görə dünyada yeddinci yerdədir - 0,39 dollar. Başqa sözlə desək, bizdə çörək, bəzilərinin dediyi kimi, heç də baha deyil. Bunu çörəyə münasibətdə israfçılığımız da təsdiqləyir. Heç kəs sübut edə bilməz ki, çörəyi köhnədir deyib torba-torba atmağımızın tək səbəbi keyfiyyətsizliyidir. İnanmırıq ki, dünyada çörəyi ən baha qiymətə satan (3,28 dollar) İsveçrədə, yaxud ABŞ-də (3.27 dollar), İslandiyada (3,15 dollar), Norveçdə (2,88 dollar) və Danimarkada (2,87 dollar) bizdəki qədər çörək atıla.

Lakin ona da inanmırıq ki, adlarını çəkdiyimiz və çəkmədiyimiz ölkələrin xalqları bizim kimi çörəyin haqqını bilə, hətta müqəddəs bilib and içdiyimiz bu əvəzsiz nemətə münasibətdə qeyd etdiyimiz bəzi hallara baxmayaraq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***




# Fəxr et, qürur duy, AZƏRBAYCAN!





# 7-ci dəfə...

## Azərbaycan ən mükəmməl idman infrastrukturuna malikdir

**Bakı ilk dəfə deyil ki, "Formula-1" yarışına evsahibliyi edir. Şəhər indiyədək 6 dəfə - 2016-2022-ci illərdə bolid pilotları arasında sürət mübarizəsinin şahidi olmuşdur. Bu gün "Formula-1" üzrə 74-cü dünya çempionatının 4-cü mərhələsi - Azərbaycan Qran-prisinin final yarışı motoidman fanatlarının diqqətini özünə cəlb edəcək. Beləcə Odlar yurdu beynəlxalq idman ictimaiyyətinin ən çox maraqlandığı məkan olacaq.**

**Günün təqvimi**

**Azərbaycan Qran-prisi 15:00**



Ölkəmiz dövlət müstəqilliyinin bərpasından sonra ev sahibi kimi mötəbər beynəlxalq idman tədbirlərinin təşkilində yetərli təcrübə toplayıb. Beynəlxalq turnirlərə hazırlıq işləri aparılarkən səlahiyyətli orqanlar vahid komanda kimi çıxış edib, idmançıların və azarkeşlərin rahatlığını təmin etmək üçün bütün lazımi tədbirləri görüblər. Təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilib. Buna görə Azərbaycandan ayrılan qonaqlar vətənlərinə xoş xatirələr, zəngin təəssüratlarla qayıdırlar.

Avropa və Beynəlxalq Olimpiya komitələrinin, beynəlxalq federasiyaların rəhbərləri Azərbaycanın təşkilatçılıq səviyyəsini həmişə yüksək qiymətləndirirlər. Çünki ölkəmiz istənilən beynəlxalq idman tədbiri zamanı həm idmançıları beynəlxalq standartlar çərçivəsində qarşılayır, həm də yarışı izləmək üçün ölkəyə gələn çoxsaylı xarici qonağın yerləşə bilməsi üçün müəyyən infrastruktur yaradır.

Azərbaycan artıq uzun illərdir ki, beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının keçirilməsində möhtəşəm nümunələr göstərir. İndiyədək Azərbaycanda I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, UEFA Avropa Liqasının finalı, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşması kimi böyük idman tədbirləri keçirilib. Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasətinin nəticəsi olaraq Bakıda yaradılan möhtəşəm infrastruktur bu yarışların hər birini mükəmməl şəkildə təşkil etməyə imkan verib. Həm də təsdiq olunub ki, Bakı şəhəri və eləcə də regionlarımız istənilən sayda xarici qonağı qəbul edə bilər.

Azərbaycan bu idman yarışlarına ən ideal şəkildə evsahibliyi etməklə Avropanın idman tarixinə öz möhürünü vurub, yeni və ideal təşkilatçılıq nümunələri yaradıb. Ölkəmiz bütün dünyaya evsahibliyinin və yüksək təşkilatçılığın necə olduğunu göstərib.




"Formula-1" də sıradan bir yarış deyil, dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. Hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən, pilotlar və komandalar ilin sonunda çempionluq titulu qazanırlar. Mübarizə aparan iştirakçıların sayı digər idman tədbirlərindən az olsa da, bu avtomobil yarışı tamaşaçı sayına görə yalnız futbol üzrə dünya çempionatından və Olimpiya Oyunlarından geri qalır. Hesablamalara görə, "Formula-1"in dünyadakı auditoriyası təxminən 500 milyon nəfərdir.

"Formula-1"də gündəlik həyatda görmədiyimiz və xüsusi olaraq bu idman növü üçün hazırlanan avtomobillər yarışır. Bolid adlandırılan müasir "Formula-1" avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar təkadamlıq olur, üstəlik sürücü yeri və təkərləri açıqdadır. Bu avtomobillərin yürüşü üçün tələblərə cavab verən trekin olması vacib şərtdir. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası "Formula-1" təqviminin ən gözəl mübarizə meydanlarından biridir. Çünki Bakı mübarizəsində pilotlar xüsusi avtodromda deyil, məhz şəhərin küçələrində yarışırlar. Qeyd edək ki, pilotlar həmişə Bakı Şəhər Halqası barədə yüksək fikirlər söyləyiblər. Çünki Bakıdakı mübarizə meydanı çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. Nadir xüsusiyyətlərə malik olan Bakı Şəhər Halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçısı paytaxtımızın gözəlliyini, tarixi və müasir memarlıq abidələrini, bir sözlə, ecazkar bir mənzərəni görə bilirlər.



# Unudulmaz Bakı

## Azərbaycan Qran-prisi azarkeşlər üçün möhtəşəm məqamlarla yadda qalır

**Dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisinə ölkəmizin evsahibliyi etməsinin qürur və sevincini yaşamaqdayıq. Belə bir möhtəşəm yarışın sayca 7-ci dəfə Azərbaycanda keçirilməsi dünyaya növbəti dəfə azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, qədim tarixi, füsunkar təbiəti, mentaliteti, sürətlə inkişaf edən müasir ölkə ilə tanışlıq fürsəti verib.**






Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb edib. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə görür. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıdır.

Hər kəs Azərbaycanda keçirilən sürət yarışına hazırlıq işlərinin çox yüksək səviyyədə aparıldığının şahidinə çevrildi. Bunu aprelin 28-də start götürən ilk yarış günündə aydın şəkildə görmək olurdu. İlk növbədə, Azneft dairəsindən Dəniz vağzalına kimi qurulan bütün əyləncə zonaları, "F-1" şəhərciyi bütün bilet sahiblərinin üzünə qapılarını açıb. Dünəndən etibarən tamaşaçılar onlar üçün qurulmuş möhtəşəm əyləncə məkanlarından istifadə edirlər.



Tədbirlər isə hər kəs üçün inanılmaz dərəcədə maraqlı və unudulmayacaq məqamlarla yadda qalır. Üçgünlük tribuna biletlərinin sahibləri günorta saatlarında Pitleyn yürüşü edərək, "Formula-1" həyatını daha yaxından izləmək şansına malik olurlar. Tamaşaçılar komandaların qarajlarında dünyanın ən innovativ yarış avtomobillərinin mühəndis və mexaniklər tərəfindən necə sazlanması prosesini yaxından izləmək imkanını əldə edirlər.

Bakı bulvarının əsas səhnəsində sürətsevərlər öz qəhrəmanları - dünyaca tanınmış pilotlarla avtoqraf sessiyalarında görüşdülər. Bu isə azarkeşlər üçün əsl hədiyyə oldu.

"Formula-1"in Azərbaycan nümunəsi yüksək səviyyədə hazırlıq, qonaqpərvərliklə dünyanı heyran edərək, paytaxtımızda yarışan ən məşhur pilotların qəlbində dostluq, anlaşma, sevgi məşəli yandırıb.

Bu arada Azərbaycan Qran-prisinin start düzülüşü bəlli olub. "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Şarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Loqan Sarjent yarışırlar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Nik de Vris və Yuki Tsunoda, "Alpine"da isə Pyer Qasli ilə Esteban Okon mübarizə aparırlar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Oskar Piastri və Lando Norris yürüşdə iştirak edirlər. Pilotlar Niko Hulkenberq və Kevin Maqnussen "Haas", Fernando Alonso və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyurlar. Yarışı "Ferrari"nin pilotu Şarl Lekler qalib kimi başa vurub. "Red Bull Racing"in üzvləri Maks Ferstappen və Serxio Peres ilk üçlüyü tamamlayıblar.

Beləliklə, ölkəmizə gələn turistlər, dünyanın aparıcı pilotları, avtomobil mütəxəssisləri Azərbaycanla daha yaxından tanış oldular, onun inkişafını gözləri ilə gördülər. Azərbaycan bu yarışa yüksək səviyyədə evsahibliyi etməklə bir daha sübut etdi ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.



# Daha 3 il



**Azərbaycan Qran-prisi 2026-cı ilədək "Formula-1" təqvimində qalacaq. Bu barədə tərəflər arasında müqavilə imzalanıb.**

Gənclər və idman naziri Fərid Qayıbov deyib ki, "Formula-1" Azərbaycan Qran-prisinin təşkili ölkəmiz üçün qürur mənbəyidir. Yarış daha üç il azarkeşlərimizi ruhlandırmağa və həyəcanlandırmağa davam edəcək.

Nazir bildirib ki, Bakıda təşkil olunan son altı yarışda ən yaxşı və ən dramatik anlar yaşanıb. Növbəti üç il ərzində yerli və əcnəbi "F-1" azarkeşləri gözəl anlar yaşayacaqlar. Bugünkü razılaşma 100-dən çox ölkədən rekord sayda azarkeşi qəbul etdiyimiz yarış həftəsonuna təsadüf etdi. Bunu xüsusi əhəmiyyətli etmək üçün bu günü seçdik.

"Formula-1"in prezidenti Stefano Domenikali isə bildirib ki, Azərbaycanla əlaqələrimizi genişləndirməkdən şadıq. Birgə inkişafı davam etdirməyi səbirsizliklə gözləyirik. Funksioner Bakı Şəhər Halqasının "Formula-1" üçün çox məşhur məkana çevrildiyini bildirib: "Bu, həmişə maraqlı yarışa evsahibliyi edən inanılmaz trasdır".






# Sprint yarışının qalibləri məlum oldu

**Dünən "Formula -1" Azərbaycan Qran-prisi çərçivəsində komandaların sprint yarışı başa çatıb. Yarışda "Red Bull" pilotu Serxio Peres qalib olub. "Ferrari"dən Şarl Lekler ikinci, Peresin komanda yoldaşı Ferstappen üçüncü yeri tutub.**

"Formula-1" Azərbaycan Qran - prisi çərçivəsində "Formula -2" komandalarının sprint yarışı başa çatıb. Yarışın qalibi Prema Racing"dən Oliver Bearman qalib olub. Yarışın sonlarına yaxın zəncirvari qəza nəticəsində daha 4 pilot mübarizəni dayandırıb.

# Ombudsman Tərtərdə mina partlayışı nəticəsində mülki şəxslərin həlak olması ilə əlaqədar dünya ictimaiyyətinə çağırış edib

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Tərtərdə baş vermiş mina partlayışı nəticəsində mülki şəxslərin həlak olması faktı ilə əlaqədar dünya ictimaiyyətinə çağırış edib. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.**

Bildirilib ki, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi mina terroru və azərbaycanlılara qarşı nifrət siyasəti günahsız insanların qətlə yetirilməsinə səbəb olmaqdadır.

Ombudsman dərin təəssüf hissi ilə diqqətə çatdırıb ki, bu il aprelin 28-də Tərtər rayonunun Talış kəndi ərazisində baş vermiş mina partlayışı nəticəsində 3 nəfər mülki şəxs həlak olub. Ermənistan 30 ilə yaxın bir dövr ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq insanların həyat və sağlamlığına zərər vermək məqsədilə yüz minlərlə mina basdırıb. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə 300-dək insan mina qurbanı olub, onlardan 54 nəfəri həyatlarını itirib. Lakin bütün bunlara baxmayaraq, Ermənistan nəinki ərazilərimizdə basdırdığı minaların dəqiq xəritələri haqqında məlumat verməkdən yayınır, təxribat-diversiya qrupları vasitəsilə işğaldan azad olunmuş ərazilərimizi yenidən minalarla çirkləndirməkdə davam edir.

Belə ki, son dövrlər baş vermiş mina hadisələrinin araşdırılması zamanı yolun hərəkət hissəsi ətrafında Ermənistan tərəfindən 2021-ci ildə istehsal olunmuş tank və piyada əleyhinə minaların aşkarlanması Ermənistanın postmüharibə dövründə təxribatçılıq siyasətini davam etdirməsinin növbəti sübutudur.

Dünya ictimaiyyətinin, əlaqədar beynəlxalq təşkilatların mina terroru ilə əlaqədar Ermənistana ciddi təsir göstərməməsi son dövrlərdə regionda bu kimi təxribatyönümlü, beynəlxalq humanitar hüquqa zidd hərəkətlərin intensiv xarakter almasına səbəb olmaqdadır.

Dəfələrlə tələb olunmasına baxmayaraq, minalanmış ərazilərin dəqiq xəritələrinin hələ də ölkəmizə təqdim edilməməsi nəticə etibarilə çoxsaylı insan itkilərinə, ağır xəsarətlərə və əlilliyə gətirib çıxaran mina partlayışlarının baş verməsinə səbəb olur.

"Bununla əlaqədar bir daha dünya ictimaiyyətinə müraciət edərək, insanların həyat və sağlamlığı üçün ciddi təhlükə mənbəyi olan Ermənistanın mina terrorunun aradan qaldırılması məqsədilə minalanmış ərazilərin dəqiq xəritələrinin ölkəmizə verilməsinə dəstək verməyə və beynəlxalq humanitar hüququn tələblərini pozmaqda davam edən Ermənistana qarşı təsirli tədbirlər görməyə çağırıram", - deyə ombudsman qeyd edib.


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Ermənistan bütün dünyanın gözü qarşısında hərbi cinayətlərini davam etdirir

**Yenə mina partladı… Yenə ölüm oldu! Tərtərdə üç nəfər gənc avtomobillə hərəkətdə olarkən minaya düşüb həyatlarını itirdi. 1982-ci il təvəllüdlü Nadir Yusifov, 1981-ci il təvəllüdlü Səxavət Gözəlov və 1996-cı il təvəllüdlü Fərid Sədiyev mina terrorunun qurbanı oldular. Heç nə olmayıbmış kimi.**





İnsan hüququ ilə məşğul olan beynəlxalq təşkilatlar yenə susdu. Dünyanın heç bir dövlətindən səs çıxmadı. Sözsüz ki, Hayastanda üç günahsız gəncin ölümünə sevinənlər az olmadı...

Hayastan birmənalı olaraq terrorçu dövlətdir. Bütün dünyanın gözü qarşısında bir qayda olaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən nümayişkaranə surətdə imtina edir, terrorla məşğul olur, amma dünya birliyi onun bu özbaşınalığına göz yumur.

Bütün dünyanın gözü qarşısında işğal etdikləri əraziləri yandırıb külə döndərib, tarixi abidələri məhv edib, hərbi təyinatı olmayan əraziləri də minalayaraq ölüm koordinatına çeviriblər. Dünya buna seyirçi gözlə baxır...

Hayastan beynəlxalq hüquqa qəti surətdə məhəl qoymur. Hayastan "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, 10 oktyabr 1980-ci il "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəaları da Ermənistan tərəfindən pozulur. Həmin konvensiyaya əsasən, münaqişə tərəfləri müharibə başa çatdıqdan sonra minalardan təmizlənəcək sahələrin xəritələrinin təhvil verilməsi, piyadalara qarşı minalardan istifadə etməyəcəkləri barədə öhdəlik götürür. Amma rəsmi İrəvan görün nə edir? Onlara humanitar məqsədlə verilmiş Laçın yolundan torpaqlarımıza mina daşıyır, terrorçuluq fəaliyyətini davam etdirir...

2022-ci il noyabrın 21-də ordumuzun mühəndis-istehkam bölmələri Laçın rayonunun ərazisi olan Sarıbaba yüksəkliyində 2021-ci ildə Hayastanda istehsal edilmiş 350 ədəd PMN-G tipli piyada əleyhinə mina aşkar etmişdi. Ümumiyyətlə, 30 illik işğal dövründə terrorçular ərazilərimizə 2 milyondan çox mina basdırmışlar. ANAMA-nın keçən aya olan məlumatına görə, təkcə mart ayında işğaldan azad olunmuş Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Füzuli, Şuşa, Laçın, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 270, tank əleyhinə 656 mina və 1465 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ümumiyyətlə, Vətən müharibəsi başa çatdıqdan sonra 77 890 hektar ərazi minalardan təmizlənib, 87 min mina və partlamamış hərbi sursat aşkarlanıb. 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycanda 298 nəfər minaya düşüb, onlardan 54 nəfəri ölüb, 245 nəfəri isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Xatırladaq ki, Hayastanın mina terroru nəticəsində 1991-ci ildən indiyədək Azərbaycanda 358 uşaq və 38 qadın daxil olmaqla, 3377 nəfər ölüb və ya yaralanıb.

Tərtərdə baş verən mina terroru ilə bağlı Azərbaycan XİN bəyanat verib. Bəyanatda deyilir: "Tərtərdə baş verən mina partlayışı bir daha onu göstərir ki, Azərbaycana yararlı və düzgün mina xəritələrini təqdim etməyən, üçtərəfli Bəyanatın 6-cı bəndini kobudcasına pozaraq Azərbaycan ərazisində hərbi fəaliyyəti və minaların yerləşdirilməsini davam etdirən Ermənistanın əsas məqsədi postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır. Beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəlikləri kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa çağırırıq".

Hayastan bütün dünyanın gözü qarşısında hərbi cinayətlərini, dünya birliyi isə erməni yalanlarına göz yummaqda davam edir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi olub





**Quru Qoşunlarının 2023-cü il üçün hazırlıq planına uyğun olaraq, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətənimizin müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Kurs iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb.

Mərasimdə çıxış edənlər hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu kimi kursların əhəmiyyətindən danışıb, kursu müvəffəqiyyətlə bitirənlərə gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub, hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

Sonda şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

# Aşağı gəlirli ölkələrdə qızların və qadınların 90 faizi internetdən məhrumdur

**Bəzi ölkələrdə yeniyetmə qızların və gənc qadınların təxminən 90 faizi internetdən istifadə etmir. Onların kişi yaşıdları iki dəfə çox internetdən yararlana bilirlər. Bu barədə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) İKT-də Qızların Beynəlxalq Günü ilə bağlı məlumat yayıb.**



Fondun ekspertləri aşağı və orta gəlirli ölkələrdə 15-24 yaşlı insanlar arasında internetdən və mobil telefondan istifadəyə, habelə rəqəmsal bacarıqlara dair məlumatları təhlil edərək belə nəticəyə gəliblər ki, qızlar oğlanlara nisbətən daha az imkanlara malikdirlər.

UNICEF-in təhsil üzrə direktoru Robert Cenkins bildirib ki, qızlar və oğlanlar arasında rəqəmsal uçurumu azaltmaq sadəcə internetə və texnologiyaya çıxışdan daha önəmlidir. Söhbət qızlara yenilikçi, yaradıcı və lider olmaq imkanı verilməsindən gedir. Onun dediyinə əsasən, əgər əmək bazarında, xüsusən elm, texnologiya, mühəndislik və riyaziyyat sahələrində gender fərqini aradan qaldırmaq istəyiriksə, bunu məhz indi gənclərin, xüsusən də qızların rəqəmsal bacarıqlara yiyələnməsinə kömək etməklə başlamalıyıq.

32 ölkədə qızların kompüterdə fayl və qovluqların surətini çıxarmaq, fayl və e-poçt göndərmək kimi sadə rəqəmsal bacarıqlara yiyələnməsi ehtimalı oğlanlara nisbətən orta hesabla 35 faiz azdır.

Ekspertlər vurğulayırlar ki, rəqəmsal uçurumun səbəbləri daha geniş gender bərabərsizliyi və patriarxal ənənələrlə bağlıdır. 41 ölkə üzrə məlumatların təhlili göstərir ki, çox vaxt qızlar və oğlanlar ailədə belə bərabər hüquqlara malik deyillər. Belə ki, oğlanların internet və texnologiyaya çıxışı daha çox olur, çünki valideynlər qızları üçün deyil, oğlanları üçün mobil telefon almağa daha çox meyillidirlər.

Evdən və ailədən kənarda da - təhsil sistemində və əmək bazarında qızlar daim maneələrlə üzləşirlər. Həyatları boyu onları ayrı-seçkilik yaradan gender normaları və stereotipləri təqib edir.

UNICEF vurğulayır ki, qızlara rəqəmsal texnologiyalarla tanış olmaq və rəqəmsal bacarıqları erkən yaşlarından öyrətmək imkanı yaratmaq lazımdır. Fond həmçinin gender stereotipləri ilə mübarizənin zəruriliyini bəyan edir.

Ekspertlər hökumətləri qızların həm məktəbdə, həm də məktəbdənkənar, rayon və icma səviyyəsində oğlanlarla bərabər rəqəmsal təhsil almasını təmin etmək üçün mümkün olan hər şeyi etməyə, mentorluq proqramları və təcrübələr keçmə vasitəsilə qızlar üçün İKT sahəsində məşğulluq imkanları yaratmağa çağırırlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi Ermənistan ordusunun hərbçisinin guya yaralanması barədə dezinformasiya ilə bağlı məlumat yayıb

Aprelin 29-da guya Azərbaycan Ordusunun bölmələri tərəfindən açılan atəş nəticəsində Dığ yaşayış məntəqəsi istiqamətində Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatı qəti surətdə təkzib edirik. Bu, Ermənistanın növbəti dezinformasiyasıdır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Görünən odur ki, Ermənistan ordusunda şəxsi heyət arasında nizam-intizam və hərbi nizamnamədən kənar münasibətlər ciddi problem olaraq qalmaqdadır", - deyə Müdafiə Nazirliyinin məlumatında bildirilib.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20



Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


**ALLAH RƏHMƏT ELƏSİN!**

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının professoru, Əməkdar elm xadimi

**SURXAY MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5643
Sifariş 1016

Qiyməti 40 qəpik